Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

17 SENTYABR 2019-cu il

№ 164 (4062)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# PAŞİNYAN ORDUYA ÇAĞIRIŞ MÜDDƏTİNİ 15 GÜN UZATDI - İŞĞALÇI ÖLKƏDƏ ORDUNUN YENİ PROBLEMLƏRİ...

səh. 8

Almaniyanın parlament sədrindən Ermənistana Qarabağ zərbəsi... səh. 5

Ermənilər ümumermənі olimpiadası deyilən oyuna İran dövlət xadimlərini də sala bildi... səh. 5

Tanınmış amerikalı həmsədrdən Paşinyanın Qarabağ siyasəti barədə inanılmaz pozitivlik... səh. 6

Ermənilərin gürcü-azərbaycanlı münasibətlərini pozmağa çalışdığı vaxtda Azərbaycanın güclü əks gedişi... səh. 7

"Kreml Paşinyanı baş nazir kimi tanımır..." səh. 10

Səudiyyənin neft yataqları vuruldu, hədəfdə İrandır, qiymət 100 dolları hədəfləyir... səh. 11

Azərbaycan təhsilində daha bir paralel struktur yaratmaq cəhdi - Turizm Universiteti varsa, turizm məktəbinə nə ehtiyac... səh. 15

Azərbaycanda hər 10 ailədən birində sonsuzluq problemi və sonsuzluğun ciddi səbəbi... səh. 13



## KTMT çərçivəsində yeni Qarabağ prosesi başlanır - Ermənistanın əleyhinə, Azərbaycanın xeyrinə, Rusiyanın dəstəyilə...

səh. 9



Vilayət Eyvazov KİV və sosial şəbəkələrdə antinarkotik təbliğatının gücləndirilməsinə çağırdı səh. 3

Azərbaycan Milli Elmlər Akademiyası Kənd Təsərrüfatı Nazirliyinin ənənəvi təcrübəsinə qarşı... səh. 13




Bəzi banklarımız tək faiz soyğunçuluğu ilə yox, Suriyada terrorun maliyyələşdirilməsi ilə də... səh. 7

səh. 6 KTMT-də Azərbaycan və Türkiyənin iştirakına qarşı Paşinyanın Kipr-Yunanıstan kartı...



səh. 8 Gürcüstanda yeni Saakaşvili - Xazaradze...



səh. 12 Azərbaycanda yeniyetmələrin cinayətləri sayca azalır - polisin profilaktik işi həlledici səbəb kimi...



səh. 14 Azərbaycanın dövlət suverenliyi simvollarına da xarici turistlərin marağı artır



səh. 15 Məktəblərimizdə vahid gündəlik problemi...



### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Binəqədi rayonundakı 300 nömrəli məktəbin yeni tədris kompleksinin açılışında iştirak ediblər

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 16-da Bakının Binəqədi rayonundakı 300 nömrəli tam orta məktəbin 960 şagird yerlik yeni tədris kompleksinin açılışında iştirak ediblər.**

Bu barədə baki-xeber.com Azərbaycan Prezidentinin rəsmi saytına istinadən xəbər verir.

### Özbəkistan məhz Naxçıvan sazişinin 10-cu ildönümündə Türk Şurasına üzvlük qərarı verdi

**Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Özbəkistanın Türk Şurasına üzvlük qərarı ilə əlaqədar bəyanat yayıb. XİN-dən baki-xeber.com-a verilən məlumata görə, bəyanatda deyilir:**



"2019-cu il sentyabrın 14-ə təsadüf edən Özbəkistan Respublikası tərəfindən Naxçıvan Sazişinin ratifikasiyasının tamamlanması Türkdilli Dövlətlərinin həmrəyliyinin möhkəmləndirilməsində növbəti əlamətdar hadisə oldu. Belə ki, 2009-cu ildə Naxçıvan Sazişi ilə əsası qoyulan və indiyə qədər Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin üzv olduğu TDƏŞ-ə daha bir türkdilli ölkə - Özbəkistanın qoşulmaq qərarı açıqlandı. Bu qərarı münasibətilə qardaş Özbəkistanı təbrik edirik.

Özbəkistan Respublikasının Türk Şurasında təmsil olunmaq qərarı dərin çoxəsrlik köklərə əsaslanan mədəni və tarixi qardaşlığımızı müasir zəmanənin tələblərinə uyğun olaraq Türkdilli Dövlətlərin xalqlarının rifahı naminə daha da inkişaf etdirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Özbəkistanın TDƏŞ-ə qoşulması barədə bu tarixi qərarının məhz Naxçıvan Sazişinin imzalanmasının 10-cu ildönümünə təsadüf etməsi Azərbaycan Respublikası üçün xüsusi rəmzi məna daşıyır. Bu il oktyabrın 15-də Bakıda keçiriləcək Türk Şurasının 7-ci Zirvə görüşündə Prezident Şavkat Mirziyoyevin rəhbərliyi ilə qardaş Özbəkistanın nümayəndə heyətini salamlamaq bizim üçün şərəfli və xoş bir fürsət olacaq".

### Elşad Hacıyev: "Vətəndaşların müraciətləri diqqətdə saxlanır"



**Bakı şəhəri üzrə vətəndaşların müraciətlərinə baxılması diqqətdə saxlanır.**

Bu barədə "Trend"ə Bakı Şəhər Baş Polis İdarəsinin (BŞBPİ) Mətbuat xidmətinin rəhbəri, polis mayoru Elşad Hacıyev məlumat verib.

Xidmət rəhbəri bildirib ki, Bakı Şəhər Baş Polis İdarəsi və tabeli polis orqanlarının şəxsi heyəti tərəfindən vətəndaşların müraciətlərinə baxılması, onların qəbulu işində nizam-intizama, qanunçuluğa riayət olunması diqqətdə saxlanılır: "İnsan hüquq və azadlıqlarının təmin olunması "Daxili işlər orqanları əməkdaşlarının etik davranış Kodeksi"nə və "Daxili işlər orqanlarında vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Təlimatın rəhbər tələblərinə əməl olunur".

# Bu dəfə Prezident İlham Əliyevlə görüşə Türkiyənin Vitse-prezidenti gəldi

**Prezident İlham Əliyev sentyabrın 16-da Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



Dövlət başçısı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini bildirərək, əməkdaşlığımızın bütün sahələri əhatə etdiyini vurğulayıb, yüksək səviyyəli siyasi əlaqələrə uyğun olaraq iqtisadi əməkdaşlığımızın da hərtərəfli inkişaf etdiyini deyib. Azərbaycan-Türkiyə tərəfdaşlığının son illərdə daha da möhkəmləndiyini bildirən dövlət başçısı ölkələrimizin həyata keçirdiyi birgə irimiqyaslı layihələrin, xüsusilə enerji sahəsi ilə bağlı layihələrin bölgə üçün böyük önəm daşıdığını qeyd edi. Prezident İlham Əliyev Azərbaycanda Türkiyənin xeyli sayda orta və kiçik müəssisələrinin fəaliyyətinin də iqtisadi əməkdaşlığın genişlənməsi işinə töhfə verdiyi deyib və ticarət dövriyyəsinin 20 faizdən çox artaraq 3 milyard dollardan çox həcmə çatmasından məmnunluğunu ifadə edib. Dövlət başçısı Bakıda keçirilən hökumətlərarası komissiyanın səmərəli nəticələr verəcəyinə əminliyi ifadə edib və Türkiyə Respublikasının vitse-prezidenti Fuat Oktayın ölkəmizə səfərinin əlaqələrimizin daha da möhkəmlənməsi işinə xidmət edəcəyini deyib.

Xoş sözlərə görə minnətdarlığını bildirən vitse-prezident Fuat Oktay, ilk növbədə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Prezident İlham Əliyevə çatdırıb. Ölkələrimizin dövlət başçıları arasında olan dostluq münasibətlərinin əlaqələrimizin inkişafındakı rolunu xüsusi qeyd edən Vitse-prezident Bakının işğaldan azad edilməsinin 101-ci ildönümü münasibətilə təbriklərini çatdırıb və paytaxtımızın daha da gözəlləşdiyini qeyd edərək Azərbaycanın bundan sonra da inkişaf yolunda olacağına əminliyini ifadə edib.

Türkiyə vətəndaşlarına münasibətdə viza rəsmiləşdirilməsi tələbinin aradan qaldırılmasına görə təşəkkürünü ifadə edən qonaq bunun iki ölkə arasında turizm və biznes sahəsində əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyini bildirib. Fuat Oktay Türkiyənin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı ilə əlaqədar qəti və birmənalı mövqeyinin olduğunu xatırladaraq, bu mövqeyin bütün beynəlxalq səviyyələrdə davamlı olaraq ifadə edildiyini diqqətə çatdırıb.

Dövlət başçısı Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirərək, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş edib.

# Azərbaycan Ordusu 10 min əsgərlik genişmiqyaslı təlimlərə başladı

**Sentyabrın 16-da Azərbaycan Ordusunun genişmiqyaslı təlimləri başlayıb. Müdafiə Nazirliyindən baki-xeber.com-a verilən məlumata görə, təlimlər Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən keçirilir.**



Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi altında baş tutan genişmiqyaslı əməliyyat-taktiki təlimlərə Azərbaycan Ordusunun müxtəlif qoşun növləri, qismləri, hərbi birlik və birləşmələri cəlb edilib.

Təlimlər zamanı dağlarda əks-hücum əməliyyatının təşkili və keçirilməsi, düşmən qruplaşmasının darmadağın edilməsi məqsədilə qabaqlayıcı zərbələrin endirilməsi və azad edilən ərazilərdə əlverişli hədlərin tutulması üzrə fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulub.

Təlimlərə 10000 nəfərədək şəxsi heyət, 100-dən çox tank və digər zirehli texnika, 120 müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 20-dək ordu və cəbhə aviasiyası və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunub.

Mürəkkəb şəraitdə, dağmeşə, qayalıq ərazilərdə və çətin radioelektron mübarizə mühitində keçirilən təlimlər zamanı ön və yandan keçmə dəstələrinin əsas zərbə qruplaşmaları, eləcə də artilleriya, aviasiya və döyüş düzülüşünün digər elementləri ilə qarşılıqlı əlaqədə fəaliyyətin təşkili üzrə tapşırıqlar icra edilir.

Təlimlərdə əsas diqqət qoşunların idarə edilməsi vərdişlərinin təkmilləşdirilməsinə, həmçinin döyüş, mənəvi-psixoloji və maddi-texniki təminat məsələlərinə yönəldilib.

Bütün fəaliyyətlər döyüş atışlı mərhələlərdən ibarət olmaqla döyüş vəziyyətinə maksimal uyğun şəraitdə müxtəlif poliqon və təlim mərkəzlərində keçirilir.

Genişmiqyaslı təlimlər sentyabrın 20-də başa çatacaq.



# Yunus Oğuz bu dəfə Çingiz xandan yazdı

## *Roman yaxın günlərdə çapa veriləcək*

**Yazıçı-publisist, tarixi romanlar müəllifi Yunus Oğuzun növbəti romanı artıq çapa hazırdır.**

"OLAYLAR" xəbər verir ki, bu barədə Yunus Oğuz özü məlumat verib. Kitabın yaxın günlərdə çapa verilməsi nəzərdə tutulub. Yazıçı bildirib ki, budəfəki romanı əfsanəvi sərkərdə Çingiz xana həsr olunub. "Çingiz xan" adlanan romanda tatarların və moğolların möhtəşəm tarixindən, onların dünyaya yeni düzən gətirməsindən geniş bəhs edilir.

Qeyd edək ki, Yunus Oğuz bundan əvvəl də bir çox tarixi şəxsiyyətlərimizdən bəhs edən onlarla roman yazıb.

Yazıçının əsərlərinin bir çox ölkələrdə tədqimatı keçirilib, ayrı-ayrı dillərə tərcümə olunub.

# Vilayət Eyvazov KİV və sosial şəbəkələrdə antinarkotik təbliğatının gücləndirilməsinə çağırdı

*DİN-in Kollegiya iclasında cari ilin 8 ayında əməliyyat-xidməti fəaliyyətin mühüm göstəriciləri açıqlandı*

**Sentyabrın 16-da Daxili İşlər Nazirliyində "Mülkiyyət əleyhinə olan cinayətlərin və qeyri-aşkar şəraitdə baş vermiş xırda talamaların qarşısının alınması və açılması"nın, həmçinin, "Polis sahə rəisləri və inspektorları tərəfindən inzibati qanunvericiliyin tətbiqi sahəsində görülmüş işlər"in vəziyyətinə və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən "Bakı-Xəbər"ə verilən məlumata görə, Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov müzakirəyə çıxarılan məsələlərin aktuallığını, daxili işlər orqanlarının fəaliyyəti ilə bağlı mühüm istiqamətləri əhatə etdiyini bildirib. O, müvafiq sahələrdə əməliyyat-xidməti fəaliyyətin məqsədyönlü təşkilinin insan hüquq və azadlıqlarının, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərinin etibarlı qorunması, bütövlükdə, vətəndaş məmnunluğunun təmin edilməsi baxımından əhəmiyyətli olduğunu vurğulayıb.

Gündəlikdəki məsələlərlə bağlı Baş Cinayət Axtarışı İdarəsinin rəisi, polis general-mayoru Arzu Daşdəmirov və Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis general-mayoru Oqtay Kərimov məruzə ilə çıxış edərək əldə edilmiş nəticələrdən, xidməti fəaliyyətdə yol verilmiş nöqsanlardan və onların aradan qaldırılması üçün görüləcək işlərdən danışıblar.

Məruzələr ətrafında ayrı-ayrı şəhər, rayon polis orqanlarının rəisləri çıxış ediblər.

İclasa yekun vuran nazir V.Eyvazov cari ilin 8 ayında asayişin və ictimai təhlükəsizliyin təmini ilə bağlı qarşıya qoyulmuş vəzifələrin, bütövlükdə, layiqincə yerinə yetirildiyini, cinayətkarlıqla mübarizədə, insan hüquq və azadlıqlarının qorunmasında əldə olunmuş müsbət nəticələrin hesabat dövründə də qorunub-saxlanıldığını diqqətə çatdırıb. O, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə qəsdən adam öldürmələrin 13,8, adam öldürməyə cəhdlərin 18,5, qəsdən sağlamlığa ağır zərərvurmaların 1,8, odlu silahın tətbiqi ilə törədilən cinayətlərin 7,5, mülkiyyət əleyhinə olan cinayətlərin 12,2, o cümlədən, quldurluqların 7, hədə-qorxu ilə tələb etmələrin 19, dələduzluqların 27 faiz azaldığını, habelə cinayətlərin açılmasının yüksək olduğunu qeyd edib.

Daxili işlər naziri gündəlikdəki məsələlər üzrə görülən işlərin ümumən qənaətbəxş olduğunu, eyni zamanda, bəzi ərazi orqanlarında müəyyən nöqsan və çatışmazlıqların mövcudluğunu diqqətə çatdıraraq onların aradan qaldırılması üçün adekvat tədbirlərin görülməsini tələb edib.

İlk növbədə cari ilin ötən dövründə bir tona yaxın narkotik vasitənin qanunsuz dövriyyədən çıxarıldığını bildirən nazir, bu sahədə fəaliyyətin nəticələrinin tam qənaətbəxş olmadığını, antinarkotik təbliğatın gənclər arasında, təhsil müəssisələrində, kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə gücləndirilməsinin vacibliyi, xüsusən cinayətkar qruplaşmaların yeni metodlardan - internet informasiya resurslarından istifadə etməklə narkotiklərin satışını həyata keçirmək cəhdlərinin qarşısının alınması üzrə icrası zəruri olan tədbirlər barədə konkret tapşırıqlar verib.



Ölkə Prezidentinin qarşıya qoyduğu əsas vəzifələrdən birinin də vətəndaş məmnunluğunun təmin edilməsi olduğunu xatırladan nazir bütün müraciətlərə operativ baxılıb qanuni qərarların qəbul edilməsinin, cinayətlər nəticəsində zərərçəkmiş şəxslərə dəymiş ziyanın istintaq və təhqiqat prosesində ödətdirilməsinin, polisin səlahiyyətinə aid məsələlərlə əlaqədar göstərilən xidmətlərin nümunəvi təmin edilməsinin hər bir orqan rəisinin gündəlik nəzarətində saxlanmasının vacibliyini nəzərə çatdırıb.

General-polkovnik Vilayət Eyvazov əmin olduğunu bildirib ki, daxili işlər orqanlarının şəxsi heyəti qanunvericilikdə nəzərdə tutulan məsul vəzifələrin və qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən layiqincə gələcək, ölkədə sabitliyin və əmin-amanlığın, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən etibarlı qorunması üçün bundan sonra da qüvvə və bacarığını əsirgəməyəcək, daha böyük əzmlə çalışacaq.

# AŞPA-nın iki yüksək missiyası Azərbaycandan xüsusi təəssüratlarla qayıdıb...

**Avropa Şurası Parlament Assambleyasının (AŞPA) prezidenti Lilian Mori Paskye Bakı səfərinin yekunları ilə bağlı məlumat yayıb. AŞPA prezidenti Bakıya səfərinin yekunlarını yüksək qiymətləndirib. O, mürəkkəb və həssas məsələlər üzrə ən yüksək səviyyədə hakimiyyətin səmimi dialoqunu yüksək qiymətləndirib.**



***Elçin Mirzəbəyli:** "Bütün bunlar AŞPA ilə Azərbaycan arasında münasibətlərin müsbət məcrada inkişaf etməsindən xəbər verir"*

AŞPA prezidenti bildirib ki, iki günlük Bakı səfəri çərçivəsində bir sıra məsələləri, xüsusən vətəndaş cəmiyyətinin vəziyyəti və QHT-lərin işinin asanlaşdırılması, QHT və hakimiyyət arasında dialoqun möhkəmləndirilməsi yollarını müzakirə edib. O bunla bağlı bir sıra məqamlara toxunub: "Vətəndaş cəmiyyəti nümayəndələri ilə müzakirələr xüsusilə faydalı olub. Cəmiyyətdəki bütün baxışlar spektrini azad şəkildə ifadə etməyin mümkün olması üçün hakimiyyət və vətəndaş cəmiyyəti arasında daimi dialoq mexanizminin yaradılması haqqında düşünmək istərdim. Vətəndaş cəmiyyətinin fəaliyyətini tənzimləyən daha elastik qanun buna böyük töhfə verə bilərdi".

Qeyd edək ki, Paskye Bakı səfəri çərçivəsində Prezident, parlamentin spikeri, xarici işlər naziri, parlament üzvləri ilə görüşüb.

Paskyedən bir qədər əvvəl Bakıda səfərdə olan AŞPA-nın Azərbaycan üzrə məruzəçisi Torhildur Sunna Evarsdottir də bənzər açıqlama ilə çıxış edib. O qeyd edib ki, onun səfəri səmərəli keçib və gələcək hesabat üçün yaxşı zəmin yaranıb. Bütün bunlar onu göstərir ki, Avropa qurumları ilə Azərbaycan arasında siyasi müstəvidə səmərəli əməkdaşlıq var və hansısa ciddi fikir ayrılığı, anlaşmazlıq yoxdur.

Politoloq Elçin Mirzəbəyli də hesab edir ki, bütün bunlar AŞPA ilə Azərbaycan arasında münasibətlərin müsbət məcrada inkişaf etməsindən xəbər verir: "Çox müsbət haldır ki, AŞPA prezidenti, qurumun Azərbaycanla bağlı məruzəçisi Bakı səfəri çərçivəsində bir sıra obyektiv fikirlər səsləndirib. Bu da AŞPA ilə Azərbaycan arasında indiki münasibətlərin kifayət qədər uğurla inkişaf edəcəyi perspektivindən xəbər verir. Bəzi istisnaları çıxmaq şərti ilə Azərbaycanla AŞPA arasında yüksək səviyyədə olub. Eyni zamanda, əməkdaşlıq yüksək səviyyədə olub. Azərbaycan öz öhdəliklərinə sadiq qalan bir ölkə kimi həm AŞPA ilə, həm də qurumun ayrı-ayrı komitələri ilə yaxından əməkdaşlıq edir. Ancaq bəzi hallarda erməni diasporunun təsirinə məruz qalan siyasətçilər, Azərbaycanda korporativ maraqları olan dairələr neqativ proseslərə rəvac veriblər. Bu da qurumun elan etdiyi dəyərlərdən uzaq düşdüyünü nümayiş etdirirdi. AŞPA-nın yeni rəhbərliyinin bu istiqamətdə müsbət meylləri nəzərə çatdırması əslində dialoq və qarşılıqlı anlaşma üçün yaxşı zəmin yaradır. Ona görə də bütün bunları bir müsbət tendensiya hesab edirəm".

***Vidadi ORDAHALLI***

**Bakının küçə və prospektlərində piyadaların hərəkətinə nəzarət edən post-patrul xidməti əməkdaşlarının fəaliyyəti dayandırılıb. Piyadaların hərəkətinə nəzarət edən və bu zaman yolu müəyyən olunmamış yerdən keçənləri saxlayan post-patrul xidmətinin əməkdaşları son günlər gözə dəymir.**

# Vilayət Eyvazovdan DİN-də daha bir islahat...

***Mehman Muradlı:** ”İnsanlarımızda yol keçmək mədəniyyəti formalaşıb”*



Bununla bağlı Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov bildirib ki, ötən ilin mart ayından Daxili İşlər nazirinin əmri ilə piyadalar tərəfindən yol hərəkəti qaydalarının pozulmasının qarşısının alınması məqsədi ilə Bakı şəhərinin rayon polis idarələrinin, eləcə də respublikanın digər şəhər və rayon polis orqanlarının post-patrul xidməti əməkdaşlarına yol patrul xidməti inspektorlarına aid olan səlahiyyətlər verilib: "O vaxt belə bir qərarın verilməsinə ehtiyac var idi. Lakin post-patrul xidməti əməkdaşlarının qayda pozanları saxlayaraq protokollar tərtib etməklə onları cərimələmələri piyadaların vaxt itkilərinə, bəzən də narazılıqlarına səbəb olurdu. Bütün bunları nəzərə alan Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov bu günlərdə müvafiq əmr imzalayıb. Əmrə əsasən, post-patrul nizami hissələri əməkdaşlarına verilmiş yol patrul xidməti inspektorlarına aid olan səlahiyyətlərə xitam verilərək, qanunla müəyyən olunmuş vəzifələrinin icrasını davam etdirmək üçün onlar daimi xidmət yerlərinə qaytarılıblar".

DİN tərəfindən verilən bu əmri necə dəyərləndirmək olar?

Hüquqşünas Mehman Muradlı baki-xeber.com-a bildirdi ki, DİN rəhbəri cənab Eyvazovun piyada keçidlərində post-patrul hissələrinə verilmiş səlahiyyəti ləğv etməsi mütərəqqi addımdır: "Cənab nazirin bu məsələyə müasir texnologiyaların imkanından yararlanmaqla yanaşması zamanın tələbi olduğunu ortaya qoymuş oldu. Bir çoxumuzu bir sual maraqlandırır: indi istədiyimiz yerdən keçə biləcəyikmi? Birmənalı olaraq bu suala cavab olaraq bildirirəm ki, xeyr, bu mümkün olmayacaq. Çünki yeni texnologiyalardan istifadə etməklə üztanıma kameraları vasitəsi ilə inzibati xəta törədən piyadaların müəyyən edilməsi o qədər də çətin olmayacaq. Əvvəl inzibati xətalar məcəlləsinin müvafiq maddəsinin icra edilməsi üçün bu cür tədbirlərə post-patrul xidmətinin cəlb edilməsi zərurəti var idi. İndi isə həmin zərurət tam olmasa da, aradan qalxıb. İnsanlarımızda yol keçmək mədəniyyəti formalaşıb. Bunda polisin böyük əməyi olub və bunu danmaq olmaz. Buna baxmayaraq, yenə də inzibati xəta törətməyə meylli vətəndaşlarımız var. Bununla yanaşı qeyd etmək istəyirəm ki, post-patrul əməkdaşlarının cinayətkarlıqla mübarizədə kifayət qədər işi var və bu yöndə fəaliyyət göstərmələri cəmiyyət üçün daha yaxşı olardı. Bütün aspektlərdən yanaşdıqda bu əmri təqdirəlayiq sayıram. Vətəndaşlarımız da insan faktorunun olmamasını nəzərə alıb, bir qədər də diqqətli olsunlar, qayda pozmağa meyl etməsinlər. Bu, həm onların təhlükəsizliyinə, həm də büdcələrinə xeyirdir".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Tovuzda sabiq məhkəmə sədrinin bir biznesmen tərəfindən güləllənməsi ilə bağlı hadisəni bəzi KİV maraqlı təqdimatla şərh edir. Məsələn yazırlar ki, qətlə yetirilən Firudin Ələkbərli nə vaxtsa buraxdığı kobud qanun pozuntularına görə onun hakimlik səlahiyyətinə vaxtından əvvəl xitam verilib.**

# Ramiz Zeynalova münasibətdə yanaşmanı pozan media orqanları...

***Azər Həsrət:** ”Bu araşdırmaların fonunda qətlə yetirilənin mənfi imicinin formalaşdırılması heç də yaxşı deyil”*



Sonra qeyd edirlər ki, özünü vəkil kimi təqdim edən bu şəxs Vəkillər Kollegiyasının üzvü deyil, yalnız nümayəndəlik fəaliyyəti göstərib. Yaxşı, götürək ki, bu belədir. Onda belə çıxır ki, hansısa media quruluşu həmin adamı mənfi xarakterizə etməklə hadisə ilə bağlı yanlış təsəvvür formalaşdırmağa çalışır?

Qətli törədən "Göl Əli" ləqəbli iş adamı ilə bağlı da maraqlı təqdimat edilir. Onun da general Ramiz Zeynalovla və ya digər vəzifəli şəxslərlə olan qohumluğu əsas gətirilərək, xəbərlərə həmin vəzifəli şəxslərin fotosu qoyulur. Bir anlıq elə təsəvvür yaranır ki, sanki baş vermiş cinayət hadisəsinə həmin generalın də aidiyyəti var. Təbii ki, bu cür təqdimat da doğru deyil.

Mövzu ilə bağlı media ekspertlərinin fikirlərini öyrənmək maraqlıdır: jurnalistlər bu məsələdə yanlışlıq edir, yoxsa yox?

Media üzrə mütəxəssis Azər Həsrət baki-xeber.com-a bildirdi ki, burada adam öldürməklə nəticələnən bir cinayət hadisəsindən söhbət gedir: "Təbiidir ki, media diqqəti məhz bu faktın üzərinə cəmləməlidir. Yəni xəbər olaraq burada kriminal mahiyyət qabardılmalıdır. Əgər hadisəni daha dərindən araşdırmaq istəyirlərsə, buyursunlar. Qətlin nə səbəbdən, hansı şəraitdə baş verdiyi ilə bağlı jurnalist araşdırmaları aparıla bilər. Lakin bir faktı da nəzərə almalıyıq ki, hazırda istintaq gedir, media da istintaqın gedişinə mane sayılan, istintaq sirri hesab olunan məlumatları tirajlamamalıdır. Qətlə yetirilən şəxsin əvvəllər harda işləməsi və ya işdən hansısa səbəbdən uzaqlaşdırılmasının bu hadisələrə o qədər də dəxli yoxdur. Ola bilər ki, qətlə yetirilənin keçmişi media üçün maraqlı olsun. Amma onu mənfi xarakterizə edən məlumatların xüsusi olaraq qabardılması artıq başqa niyyətlərdən xəbər verir. İstər mənfi, istərsə də müsbət xarakterizə olunmağına baxmayaraq, ortada bir qətl hadisəsi var. Bu araşdırmaların fonunda qətlə yetirilənin mənfi imicinin formalaşdırılması heç də yaxşı deyil. Eyni sözləri qətlə yetirənlə bağlı yayılan məlumatlara da aid edə bilərik. Həmin adamın hansısa yüksək vəzifəli şəxslərlə yaxın və ya uzaq qohum olması xüsusi olaraq qabardılmamalıdır. Çünki həmin adam uşaq deyil ki, kiminsə himayəsində yaşasın. Ağlı başında olan adam öz əməllərinə görə özü cavab verməlidir. Əgər hər hansı vəzifəli şəxsin qətlə heç bir aidiyyəti yoxdursa, onun şəkilinin bu hadisənin təqdimatında verilməsi çox yanlışdır. Bizim media bu məsələdə bir qədər diqqətli olmalıdır. Dəxli olmayan xüsusatlar həmin təqdimatda olmamalıdır. Buna riayət edilmirsə, media etikasının pozulması anlamına gəlir. Jurnalistlər bu detalları mütləq mənada nəzərə almalıdır".

> *”Hər hansı vəzifəli şəxsin qətlə heç bir aidiyyəti yoxdursa, onun şəklinin bu hadisənin təqdimatında verilməsi çox yanlışdır”*

***Məhəmmədəli QƏRİBLİ***

# Almaniyanın parlament sədrindən Ermənistana Qarabağ zərbəsi...

**"Almaniya Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq normaların tələb etdiyi şərtlərə sadiqdir və münaqişənin tezliklə sülh yolu və ölkələrin ərazi bütövlüyü çərçivəsində həll olunmasını istəyir". Bunu Almaniya Bundestaqının (parlament) sədri Volfqanq Şoyble bildirib.**



O qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsinin həlli regionda sabitliklə bağlı zəmanətin güclənməsi deməkdir.

Bundestaqın sədri Almaniyanın Azərbaycanla münasibətlərinə də toxunub: "Azərbaycan Almaniyanın strateji tərəfdaşıdır. Bizim, eyni zamanda, parlamentlərarası əlaqələrimiz də güclüdür. Biz yaxın zamanlarda qarşılıqlı səfərlərin sayını artırmaqla bu əlaqələri, birgə layihələrin reallaşmasını daha da gücləndirə bilərik".

Qeyd edək ki, Almaniya Bundestaqı sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti gələn ilin əvvəlində Azərbaycana səfər edəcək. Səfər zamanı V.Şoyble Bakıda bir sıra rəsmi görüşlər keçirəcək, tədbirlərə qatılacaq.

Onu da qeyd edək ki, Almaniya ATƏT-in Minsk Qrupunun həmsədri olmasa da, qrupa üzv olan 11 dövlətdən biridir. Bundan başqa, Almaniya dəfələrlə müxtəlif səviyyələrdə Qarabağ münaqişəsində status-kvonun saxlanmasının qəbuledilməz olduğunu bəyan edib. Bununla belə, Almaniya iqtisadi baxımdan Avropa İttifaqının lokomotivi hesab edilir. Belə bir ölkənin parlament sədrinin Qarabağ münaqişəsinin həlli məsələsində ərazi bütövlüyünə xüsusi önəm verməsi Ermənistana diplomatik müstəvidə ciddi zərbədir.

## *Məhəmməd Əsədullazadə: "Bundestaq sədrinin yanaşması rəsmi mövqedir və hesab edirəm ki, bu, Almaniyanın birbaşa Azərbaycana dəstəyinin ifadəsidir"*

Maraqlıdır, bəs ekspertlər Almaniya parlament sədrinin məlum yanaşmasını necə dəyərləndirirlər?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə aspektdən yanaşdı: "Almaniya Avropada yeganə dövlətdir ki, səmimi şəkildə Azərbaycanın ərazi bütövlüyünə dəstək verir və münaqişənin həllində ölkəmizin yanındadır. Rəsmi Berlin dəfələrlə problemin həlli istiqamətində irəliləyişin əldə olunması üçün Ermənistana xəbərdarlıq edib. Hətta kansler Angela Merkel bu məsələdə Rusiyanı da qınayıb. Bundestaq sədrinin yanaşması rəsmi mövqedir və hesab edirəm ki, bu, Almaniyanın birbaşa Azərbaycana dəstəyinin ifadəsidir. Almaniya Minsk Qrupunun həmsədri kimi münaqişənin nizamlanmasında yaxından iştirak etməsə də, ədalətli mövqe ortaya qoyur. Qeyd edim ki, Azərbaycan daim Almaniyanın həmsədrlikdə yer almasını qabardıb. Çünki Almaniyanın əsas vasitəçilikdə olması mövqeyimizi gücləndirə bilər. Fransanın yerinə məhz Almaniya olarsa, bu, bizim maraqlarımıza cavab verər.

*"Rəsmi Berlin dəfələrlə problemin həlli istiqamətində irəliləyişin əldə olunması üçün Ermənistana xəbərdarlıq edib"*

Hesab edirəm ki, Minsk Qrupunun tərkibi dəyişməli, Almaniya Fransanı əvəz etməlidir. Çünki Fransanın mövqeyi daha da işğalçıya dəstək fonundadır. Öz neytrallığını və ədalətliyini qorumur. Azərbaycan bu məsələyə qayıtmalı və Almaniyanın həmsədrliyə gətirilməsi üçün yenidən təşəbbüs qaldırmalıdır. Qeyd edim ki, Almaniya həmsədrliyə gələrsə, Ermənistan buna etiraz edəcək. Çünki bilir ki, Almaniya ədalətin yanında olacaq".

***Vidadi ORDAHALLI***

# Ermənilər ümumerməni olimpiadası deyilən oyuna İran dövlət xadimlərini də sala bildi...

**İranın paytaxtı Tehran şəhərində 48-ci erməni olimpiadası keçirilir. Oyunlarda Dağlıq Qarabağda yaradılmış terrorçu rejimin yığması da iştirak edir. 10 günlük oyunlar çərçivəsində İran, Ermənistan və Gürcüstandan olan 800 erməni atlet 9 idman növü üzrə yarışacaq.**



Rəsmi məlumatlarda qeyd edilməsə də, olimpiadada Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejim də təmsil olunub. Olimpiya idman oyun növlərinin də daxil olduğu ümumerməni oyunları sentyabrın 20-dək davam edəcək.

Tehrandakı "Ararat" stadionunda ümumerməni oyunlarının təntənəli açılışında İran Prezidentinin köməkçisi, höccətülislam Əli Yunis və İranın Milli Olimpiya Komitəsinin sədri Kiyamərs Haşimi, Tehranın erməni yeparxiyasının nümayəndəsi arxiyepiskop Sebuh Sarkisyan, Tehranın qubernatoru Seyid Hüseyn Haşimi, İranın gənclər və idman nazirinin müavini Əbdülhəmid Əhmədi, həbelə İranın Ermənistandakı səfiri Kazım Səccadi və Ermənistanın tanınmış atletləri iştirak ediblər.

İranın Azərbaycandakı səfiri Möhsün Pakayin İslam Respublikasında ermənilərin idman olimpiadası keçirməsi və qondarma "Dağlıq Qarabağ Respublikası"nın nümayəndələrinin bu yarışlarda iştirak etməsi barədə xəbərlərə aydınlıq gətirib. O bildirib ki, İranda yaşayan ermənilərin idman olimpiadasının keçirilməsi daxili bir tədbirdir və dini azlıqlara hörmət əlaməti olaraq keçirilir. Səfirin sözlərinə görə, yarışların təşkilat komitəsi Gürcüstan və Ermənistanı bu yarışlarda qonaq qismində iştirak etmək üçün dəvət edib və bunlardan başqa heç bir ölkə və ya region yarışlarda iştiraka dəvət edilməyib.

Səfir bildirib ki, hər hansı bir iştirakçı ölkənin idman geyimində başqa bir tərəfin gerbindən və ya simvolundan istifadə edilməsi təşkilat komitəsi ilə razılaşdırılmadan həyata keçirilib: "Aydındır ki, İran İslam Respublikası idmanın siyasi məqsədlər üçün istifadəsini məqbul saymır və ölkəmizin Qarabağ münaqişəsi barədə siyasəti dəyişməyib. İranın məsul şəxsləri də məhz İranda yaşayan dini azlıqlara hörmət əlaməti olaraq bu tədbirdə iştirak ediblər".

İranın bu addımını necə qiymətləndirə bilərik?

## *Elşən Həsənov: "Olimpiadada qondarma "DQR" komandasının da iştirak etməsi bunu idman yarışı kontekstindən çıxarır"*

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, İran səfirinin açıqlamasında bir qədər müəmmalı yerlər var: "Səfir diplomatik dillə deyir ki, bu, İranın daxili işinə aid olan məsələdir. Ancaq İran bu məsələdə yaxın qonşuluq münasibətləri və ən əsası, Azərbaycanın ona yönəlik davranışlarını ciddi şəkildə nəzərə almalı idi. Azərbaycan İrana qarşı olan heç bir tədbirdə və ya alyansda iştirak etmir. Hətta yaxın müttəfiqliyi olan ölkələrə belə bəyan edib ki, bizim ərazimizdən İrana qarşı hər hansı məqsədlə istifadə oluna bilməz. O cümlədən, bizi daha çox tellər bir-birinə bağlayır. Həmin ölkədə sayı 10 milyonlarla ölçülən soydaşlarımız var. Əgər İran belə bir tədbiri hansısa etnik azlıqlara hörmət əlaməti üçün keçirirsə, oradakı soydaşlarımız faktorunu da nəzərə almalıdır. Təbii ki, bu cür hərəkətlər onlarda qıcıq yaradır. Ən başlıcası isə, olimpiadada qondarma "DQR" komandasının da iştirak etməsi bunu idman yarışı kontekstindən çıxarır. Prosesə tam siyasi olan bir məna verir. Hər halda, İran kimi qonşu dövlət ermənilərin belə avantüralarını nəzərə almalıdır.

Onların çalışdığı da budur ki, belə əməllərlə İran-Azərbaycan münasibətlərinə xələl gətirsinlər. İran rəsmiləri qətiyyən ermənilərin bu sayaq oyunlarına şərik olmamlıdırlar. Çünki bizi onlarla birləşdirən dəyərlər və amillər ermənilərdən qat-qat çoxdur. Səfir də qeyd edir ki, onların Qarabağla bağlı siyasətləri dəyişməyib. Biz bilirik ki, İran Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Məhz buna görə də ermənilər belə təxribatlara əl atırlar. Bir qonşu ölkə kimi bizim bu məsələdə İrandan inciməyə haqqımız var".

***Məhəmmədəli QƏRİBLİ***

**Erməni KİV-i iki ölkənin xarici işlər nazirlərinin ATƏT-in Minsk Qrupu həmsədrlərinin görüş keçirməklə bağlı təkliflərini qəbul etməsinə müsbət yanaşdıqlarını bəyan edirlər. Hətta bu xüsusda ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan sabiq həmsədri Metyu Brayzadan eksklüziv müsahibə də alıblar.**

# Tanınmış amerikalı həmsədrdən Paşinyanın Qarabağ siyasəti barədə inanılmaz pozitivlik...

## *Qabil Hüseynli: "Onun zamanında qarşıdurma daha çoxdur və müharibə təhlükəsi kifayət qədər realdır"*



Brayza qeyd edib ki, Ermənistan rəhbərləri hər zaman Dağlıq Qarabağ problemlemini nizama salmağa çalışıblar (?), ancaq daxildəki müqavimət faktoru buna mane olub: "Hətta Levon Ter-Petrosyan da münaqişənin nizama salınmasına yaxınlaşmışdı, ancaq məlum 27 oktyabr hadisələri baş verdi. (Söhbət Ermənistan parlamentində yüksək çinli məmurların güllələnməsindən gedir -red.). Serj Sarkisyanın zamanında da belə vəziyyət yaranmışdı. Aprel müharibəsindən sonra Putin bir neçə təklif irəli sürdü ki, bu da Ermənistanda polis bölməsinin ələ keçirilməsilə nəticələndi. Eyni şeylər Paşinyanla baş verir, bütün bunlarda yeni heç nə yoxdur".

Maraqlıdır ki, Brayza Paşinyanın da ciddi cəhdlə münaqişənin nizamlanmasında maraqlı olduğunu qeyd edir: "İnqilabdan sonra yeni hakimiyyətin ilk zamanlarında danışıqlar prosesində bir sıra pozitiv irəliləyişlər müşahidə edilirdi. Ölkə başçılarının danışıqlar səviyyəsində müsbət dəyişikliklər baş verdi. Mən bilirəm ki, Bakıda ən yüksək səviyyədə Baş nazir Paşinyanın niyyətlərinə yeni etibar səviyyəsi formalaşmışdı. Mənə bəllidir ki, Bakıdakı ali hakimiyyətin nümayəndələri Baş nazir Paşinyanla məsələnin həllində irəliləyiş əldə etmək istəyirlər, amma Baş nazir Paşinyanın öz siyasi qüvvəsini effektiv konsolidasiya edəcəyi ilə bağlı hər zaman şübhə var. Belə ki, köhnə sistem Paşinyana qarşı işləyir, üstəlik, ona qarşı təzyiqlər hələ də mövcuddur. Ona görə də düşünürəm ki, bu məsələ inkişafı yavaşıdır və Baş nazir Paşinyana təzyiq göstərir".

Brayzanın sözlərinə görə, bir neçə ay əvvəl cəmiyyətləri sülhə hazırlamaq, təmas xətti boyu atəşkəsi gücləndirəcək etimad quruculuğu üçün bir neçə aydır davam edən danışıqlar nəticəsində tərəflərin verdiyi açıqlama son illərdəki ən əhəmiyyətli irəliləyiş olub.

Ermənistan hakimiyyətinin qondarma qurumun danışıqlar tərəfi olması barədə açıqlamalarına gəlincə, Brayza bildirib ki, Azərbaycan bu təkliflə razılıq vermir: "Ancaq bu bir danışıqdır, danışıqlar prosesində verməli və götürməlisiniz, digər tərəfdən, bir şey istəsəniz, təklif edəcəyiniz bir şey olmalıdır. Düşünürəm ki, bu gün Azərbaycan belə deyir: "Bəs, istəmədiyimiz bir işi görsək, nə qazanacağıq?".

Metyu Brayzanın müsahibəsindən aydın olur ki, o, Ermənistan rəhbərlərinin Dağlıq Qarabağ probleminin həlli istiqamətində ciddi çalışdıqlarını iddia edir. Bildirir ki, ölkənin daxilindən olan müqavimət bu cəhdlərə mane olur. Brayzanın bu mövqeyini necə dəyərləndirə bilərik?

## *"Brayza məsələləri bir qədər obyektiv təhlil etməlidir"*

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə bildirdi ki, Brayza bu məsələdə bir qədər ikibaşlı danışıb: "Yəqin Ermənistan KİV-nə müsahibə verdiyi üçün bir qədər onları müsbət xarakterizə etməyə məcbur qalıb. Ancaq onun müsahibəsində həqiqətə yaxın olan detallar da az deyil. İş burasındadır ki, Levon Ter-Petrosyanın zamanında doğrudan da sülh razılaşmasının bağlanmasına yaxınlıq olub. Hətta Petrosyan deyirdi ki, Azərbaycanın bizə təklif etdiyi şərtləri vaxt gələcək biz onlardan dizin-dizin sürünərək istəyəcəyik. Petrosyan da Dağlıq Qarabağı Azərbaycana vermək istəmirdi. Onun variantı bu idi ki, işğal edilmiş 7 rayon dərhal Azərbaycana qaytarılsın. Nəticəsini gördünüz.

Hətta bu varianta görə Ermənistanda bütün hakimiyyət elitasını güllələdilər və Petrosyan devrildi. Qeyd edim ki, Paşinyanla Ter-Petrosyan arasında yaxın dostluq münasibətləri var. Vaxtilə Paşinyan Petrosyanın partiyasının tərkibində fəaliyyət göstərib. Sonra özünün yeni partiyasını yaratdı. Deyilənə görə, indinin özündə də Paşinyan onunla tez-tez görüşür, hətta ondan lazımi məsləhətlər də alır. Bildirilir ki, Petrosyan Paşinyana da məsləhət görür ki, 7 rayonu dərhal qaytarsın. Ancaq onların ikisi arasında ciddi fərq var. Bu da ondan ibarətdir ki, Paşinyan daha radikal millətçidir. Ter-Petrosyan bölgədə sülh yaradıb, Ermənistanı da bölgədəki iqtisadi layihələrə qoşmaq istəyirdisə, Paşinyanda belə niyyətlər hiss edilmir. Əksinə, o, özünün dayaqlarını möhkəmləndirir və onu hakimiyyətə gətirənlərin tələblərini yerinə yetirir. Paşinyanın zamanında danışıqlar prosesi effektivliyini itirib. Onun zamanında qarşıdurma daha çoxdur və müharibə təhlükəsi kifayət qədər realdır.

Bu səbəbdən də Brayza bir qədər məsələləri obyektiv təhlil etməlidir. Yəni Ter-Petrosyan zamanında olan Dağlıq Qarabağ probleminə yanaşma ilə Paşinyan zamanındakına bərabərlik işarəsi qoymaq lazım deyil. Birinci müdrik siyasətçi kimi tanınırdısa, Paşinyan isə manyakal keyfiyyətlərə malik bir şəxs kimi xarakterizə edilə bilər. Hissləri və emosiyalarının diqtəsilə hərəkət etməyi sevən bu adamın dönəmində münasibətlər ağırlaşıb, hətta müharibə ilə nəticələnə də bilər".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Məlum olduğu kimi, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) nizamnaməsinə dəyişikliklər olub. Dəyişikliklər KTMT-də tərəfdaşlıq və müşahidəçilik institutunun yaradılmasını nəzərdə tutur. Erməni mətbuatı neçə vaxtdır bu dəyişiklikləri narahatlıqla izləyir.**

# KTMT-də Azərbaycan və Türkiyənin iştirakına qarşı Paşinyanın Kipr-Yunanıstan kartı...

## *Arzuxan Əlizadə: "Bununla Paşinyan, dolayı olaraq, Rusiyanı şantaj edir"*



Onlar hesab edirlər ki, bu, hansısa mərhələdə Azərbaycan və Türkiyənin qurumda müşahidəçi statusu ilə təmsil olunmasına gətirib çıxara bilər. Rusiya Baş nazirinin müavini Yuri Borisovun Azərbaycanın təşkilatda müşahidəçi statusu almasının mümkünlüyünü bildirməsi ermənilərin bu yöndə narahatlığını daha da artırıb. Y.Borisovun fikrincə, Rusiyada KTMT çərçivəsində Azərbaycanla əməkdaşlıq imkanları istisna edilmir.

Erməni mətbuatı yazır ki, "məxməri inqilab"dan sonra Ermənistan KTMT-nin mahiyyəti və mənası ilə bağlı suallar qaldırdı - bu hərbi-siyasi müttəfiqlər blokudur, yoxsa, ümumiyyətlə, bir blok deyilmi? Ermənistanın Baş naziri bu sualı açıq mətnlə səsləndirdi, amma cavablar hələ bilinmir.

Erməni mətbuatı yazır ki, Azərbaycanla Türkiyənin KTMT-də müşahidəçi statusu ilə təmsil olunması istənilirsə, o zaman Ermənistan da alternativ variantla çıxış etməlidir. Ermənistan bu yaxınlarda Ermənistan-Kipr-Yunanıstan formatı təşəbbüsü ilə çıxış edib. 2020-ci ilin yanvar ayında İrəvanda bu formatda sammit gözlənir. İrəvan hətta hipotetik olaraq bu formatın KTMT ilə tərəfdaşlığını irəli sürə bilər. Erməni mətbuatı bunu onunla əsaslandırmağa çalışır ki, Türkiyə NATO-nun üzvü ola-ola Rusiya ilə ən yüksək səviyyədə hərbi-texniki əməkdaşlıq edirsə, o zaman Yunanıstan və Kiprə niyə belə şərait yaradılmasın? Hesab edirlər ki, Yunanıstanla Kipr guya Azərbaycan-Türkiyə tandeminə qarşı balans yarada bilər. Bir növ, bununla Paşinyan KTMT-də Azərbaycan və Türkiyənin iştirakına qarşı Kipr-Yunanıstan kartını ortaya qoymaq istəyir. O baxımdan bu nə dərəcədə mümkündür?

Məsələyə münasibət bildirən AMİP-in sədr əvəzi Arzuxan Əlizadənin sözlərinə görə, bununla Paşinyan, dolayı olaraq, Rusiyanı şantaj edir: "Görünür, bununla Kremlə mesaj ünvanlayırlar ki, Azərbaycanla Türkiyəni KTMT-də görmək istəyirsinizsə, o zaman İrəvan da bu təşəbbüslə çıxış edəcək. Türkiyənin Yunanıstan və Kiprlə münasibətləri bəllidir. Yəni tərəflər arasında münasibətlər uzun müddətdir gərgindir. Hesab edirəm ki, Ermənistanın belə bir istəyi baş tutmayacaq. Ona görə ki, nə Yunanıstan, nə də Kipr ABŞ-ın iradəsinə qarşı çıxıb belə bir addım atmaz.

## *"Nə Yunanıstan, nə də Kipr ABŞ-ın iradəsinə qarşı çıxıb..."*

Çünki bu ölkələrlə NATO arasında ciddi fikir ayrılığı, hansısa digər problem yoxdur. O baxımdan Ermənistanın bu yöndə haçansa təşəbbüslə çıxış etməsi o demək deyil ki, bu variant reallığa uyğundur. Sadəcə, Rusiyanı uğursuz formada şantaj etmək istəyirlər".

***Vidadi ORDAHALLI***

# Bəzi banklarımız tək faiz soyğunçuluğu ilə yox, Suriyada terrorun maliyyələşdirilməsi ilə də...

## *Fikrət Yusifov: "İndi də belə bir hadisənin baş tutması onlarla bağlı olan mənfi təsəvvürlərin formalaşmasını daha da artıracaq"*

**Bakı Ağır Cinayətlər Məhkəməsində Suriyada terror təşkilatlarının maliyyələşdirilməsində iştirak edən 29 yaşlı Sahil İbrahimov, 28 yaşlı İlqar Ağayev və 27 yaşlı Namiq Məmmədovun cinayət işi üzrə məhkəmə prosesi keçirilir.**



Təqsirləndirilən şəxslər Azərbaycandan yarım milyon manatdan çox vəsait toplayaraq Suriyaya göndəriblər. Belə ki, təqsirləndirilən Sahil İbrahimovun qardaşı Samir İbrahimov Suriyada gedən döyüşlərdə iştirak edib. O, Suriyada olduğu müddətdə Azərbaycanda olan, əhlisünnə məzhəbinin sələfi təriqəti üzrə ibadət edən şəxslərlə müntəzəm olaraq əlaqə saxlayıb. Bildirib ki, Suriyada İŞİD-in tərkibində döyüşən azərbaycanlıların ölkədə və xaricdə yaşayan yaxınlarıyla, eyni təriqətdən olan şəxslərlə əlaqə saxlasınlar, onların göndərdikləri pulları yığıb Suriyaya yollasınlar.

Pullar xarici ölkələrdən Bakıya, buradan Türkiyəyə, oradansa Suriyaya göndərilib. Pul göndərişləri əsasən banklar vasitəsilə həyata keçirilib. 2017-ci ilin sentyabrından 2018-ci ilin fevralına qədər Sahil İbrahimov bir neçə dəfəyə 210 min manat, İlqar Ağayev 135 min dollar, 2018-ci ilin mart-aprel aylarında isə birlikdə yenə 135 min dollar pul göndəriblər.

Azərbaycanda bankların fəaliyyətindən narazılıqların olduğu bəllidir. Əsasən onların depozitləri aşağı qiymətlə götürüb, çox yuxarı qiymətlə kreditlər verməsi, ölkə başçısı tərəfindən dollar kreditləri ilə bağlı müəyyən edilən kompensasiyaların vaxtında müştərilərə çatdırılmaması ilə bağlı olan narazılıqlar tez-tez medianın gündəmində olur. Bakıda baş tutan bir məhkəmə prosesində açıqlanan faktlardan məlum olur ki, sən demə, bəzi banklar terrorçuluğun maliyyələşdirilməsi prosesində yaxından iştirak ediblər. Ortaya çıxan faktlar nələri söyləməyə əsas verir?

Sabiq maliyyə naziri Fikrət Yusifof "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə halın baş verməsi doğrudan da təəssüfedicidir: "Bu cür məsələlərə birbaşa nəzarət etməli olan qurumlar var. Onlardan ən birincisi Maliyyə Bazarlarına Nəzarət Palatasıdır. Bir də maliyyə monitorinq xidməti deyilən bir təsisat var. Onların birbaşa vəzifəsinə aid olan məsələdir. Eyni zamanda, Mərkəzi Bank da öz nəzarət funksiyasını ciddi şəkildə həyata keçirməlidir".

"Belə bir nəzarət hansı formada olmalıdır" sualına Fikrət Yusifov belə cavab verdi: "Onun araşdırma metodologiyası var. Bunu həmin qurumda oturanlar çox gözəl bilirlər. Yəni pul Azərbaycandan köçürülürsə, bunun hara, nə məqsədlə köçürülməsi də araşdırılmalıdır. Nəzarət etmək tam mümkündür. Götürək ki, fikri yayındırmaq üçün həmin pulları xaricə hansısa biznes kontraktı əsasında transfer ediblər. Onda da sübut etməlisən ki, həmin pula nə alıbsan? Sənin pul göndərdiyin adam bura həmin pulun müqabilində hansı malı göndərib? Əvvəlki illərlə müqayisədə indi nəzarət mexanizmi çoxdur və kifayət qədər də ciddiləşdirilib. Bütün bu nəzarətin gözündən yayınmaqla həmin vəsaitlər Azərbaycana gətirilib, oradan da Suriyaya göndərilibsə, deməli, burada böyük dəstəkdən söhbət gedir. Hansısa səlahiyyətli şəxslər həmin şəbəkəyə dəstək olublar".

"Nə qədər məbləğin xaricə köçürülməsi şübhəli əməliyyat kimi nəzarətə götürülə bilər" sualına isə sabiq maliyyə nazirinin cavabı belə oldu: "Mən məbləğlə bağlı konkret nəsə deyə bilmərəm. Ancaq həmin proseslərə mütləq mənada nəzarət edilir. Barəsində söhbət açılan məbləğlər də az deyilsə, deməli, nəzarət edilməli idi".

"Belə bir halın ölkəmizin imicinə nə kimi təsiri ola bilər" sualına cavabında Fikrət müəllim bildirdi ki, bunun daha çox bank sektorunun imicinə ciddi təsiri var: "Onsuz da bankların imici çox aşağıdır. 2015-ci ildəki devalvasiyadan sonra onlar tamamilə nüfuzdan düşüblər. Dollarla verilən kreditlər və ondan sonra yaşananlar banklardan narazılığı artırıb. İndi də belə bir hadisənin baş tutması onlarla bağlı olan mənfi təsəvvürlərin formalaşmasını daha da artıracaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənilərin gürcü-azərbaycanlı münasibətlərini pozmağa çalışdığı vaxtda Azərbaycanın güclü əks gedişi...

## *Giya Paçxataşvili: "Azərbaycan Prezidentinin gürcüdilli məktəblə bağlı atdığı bu uğurlu addım erməni təxribatına vurulan sərt bir zərbə oldu"*

**Azərbaycanda bütün milli azlıqların öz ana dillərində təhsil alması üçün şərait yaradılıb. Ölkəmizdə yaşayan gürcülərin də ana dillərində təhsil alması reallaşdırılır. Azərbaycan dövləti ölkəmizdəki bütün məktəblərin təmir-bərpasına, eləcə də tikintisinə xüsusi diqqət yetirir. Bu gün Azərbaycanda gürcüdilli şagirdlər üçün də yeni məktəblər inşa edilərək onların ixtiyarına verilir.**



Qax rayonunda gürcüdilli məktəb üçün növbəti yeni bina inşa edilərək şagirdlərin istifadəsinə verilib. Heç şübhəsiz ki, Azərbaycan dövləti bütün vətəndaşlarına eyni gözlə baxır, onların hər birinin qayğı və problemlərinin həll edilməsinə nail olur.

Ölkəmizdə gürcüdilli məktəblərin inşa edilməsi Azərbaycan-Gürcüstan münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edir. Yeri gəlmişkən, Qax rayonunda gürcüdilli məktəb üçün yeni binanın inşa edilməsinə Gürcüstanın təhsil, elm, mədəniyyət və idman nazirinin müavini müsbət reaksiya verib. Levan Xartişvili bunun hər iki dövlət üçün böyük əhəmiyyətə malik olduğunu deyib: "Azərbaycanın Qax rayonunda gürcüdilli məktəb üçün yeni binanın inşa olunmasına Gürcüstan hökuməti çox böyük önəm verir". O qeyd edib ki, müasir tələblərə cavab verən istənilən məktəbin açılışı müsbət addımdır: "Qax rayonunun Əlibəyli kənd məktəbinin yeni binasının istifadəyə verilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevə və azərbaycanlı tərəfdaşlarımıza təşəkkür edirik".

Nazir müavini Gürcüstan və Azərbaycan arasında sıx tərəfdaşlıq və dostluq münasibətlərinin olduğunu vurğulayaraq, bu əlaqələrə görə azərbaycanlı tərəfdaşlara minnətdarlığını ifadə edib.

Qeyd edək ki, Prezident İlham Əliyev 2018-ci il oktyabrın 29-da "Qax rayonunun Əlibəyli kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. 216 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Təhsil Nazirliyinə ilkin olaraq 1 milyon manat ayrılmışdı. Şota Rustavelinin adını daşıyan orta məktəbin yeni binası 2019-cu il sentyabrın 13-də istifadəyə verilib.

Məlum olduğu kimi, Gürcüstandakı Azərbaycandilli məktəblərin sayı ilbəil azalır. Azərbaycanlıların tarixən bu ölkədə kompakt yaşamasına baxmayaraq, indiyə qədər bir-iki məktəb təmir edilib, ya edilməyib. Gürcüstandakı Azərbaycan məktəbliləri əsasən köhnə məktəb binalarında təhsil alırlar. Bu məsələ dəfələrlə Gürcüstan hökuməti qarşısında qaldırılsa da, hakimiyyətdə təmsil olunan ermənilər və ermənipərəst qüvvələr buna mane olub. Sirr deyil ki, Gürcüstan hakimiyyətində təmsil olunan ermənilər bütün güclərini birləşdirərək Azərbaycan-Gürcüstan münasibətlərini pozmağa çalışırlar. Erməni təxribatının tüğyan etdiyi bir zamanda Azərbaycan hökuməti bu təxribatları heçə endirən jest etdi və Azərbaycandakı gürcüdilli məktəb üçün yeni bina inşa edib şagirdlərin ixtiyarına verdi. Bu da, bildiyimiz kimi, Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi səviyyəsində təqdir edildi. Azərbaycan dövlətinin Gürcüstanla əlaqələrin daha da möhkəmlənməsi istiqamətində atdığı hər bir addım erməni təxribatına vurulan bir zərbədir.

*"Ermənilər çox çalışırlar ki, iki dövlət və iki xalq arasında ziddiyyət yaratsınlar, ancaq bu heç cür alınmır"*

Tanınmış gürcü əsilli şair-tərcüməçi, əslən Qaxdan olan Giya Paçxataşvili bizimlə söhbətində Azərbaycan dövlətinin gürcülərin öz ana dillərində təhsil alması üçün yaratdığı şəraitin ermənilərin təxribatına böyük zərbə olduğunu vurğuladı. Azərbaycanda yaşayan gürcülərin daim Azərbaycan dövlətinin qayğısı ilə əhatə olunduğunu qeyd edən G.Paçxataşvilinin sözlərinə görə, gürcülər də hər zaman dövlətin bu addımlarını qiymətləndirirlər: "Azərbaycanda yaşayan gürcülər bu ölkənin tam hüquqlu vətəndaşları kimi bütün hüquqlardan istifadə edirlər. Bu gün Qax gürcülərinin yeni məktəb binası ilə təmin olunması müsbət hadisədir və bu, iki dövlət arasındakı münasibətlərin daha da istiləşməsinə xidmət edir. Bu gün Gürcüstandakı Azərbaycan məktəblərinə qarşı güclü erməni təxribatı var, erməni məmurlar buradakı məktəblərin sayının azaldılmasına çalışırlar. Bilirsiniz ki, Gürcüstan hakimiyyətində təmsil olunan ermənilər hər iki xalq və dövlət üçün böyük təhlükədir. Amma hesab edirəm ki, Azərbaycan Prezidentinin gürcüdilli məktəblə bağlı atdığı bu uğurlu addım erməni təxribatına vurulan sərt bir zərbə oldu. Çünki ermənilər çox çalışırlar ki, iki dövlət və iki xalq arasında ziddiyyət yaratsınlar, ancaq bu heç cür alınmır" - deyə G.Paçxataşvili vurğuladı.

***İradə SARIYEVA***

# Paşinyan orduya çağırış müddətini 15 gün uzatdı - işğalçı ölkədə ordunun yeni problemləri...

**Ermənistanda orduya çağırış müddəti uzadılıb. Bu barədə ölkənin "Jamanak" qəzeti məlumat yayıb. Sözügedən mətbuat orqanı yazır ki, hökumət orduya çağırışın, son illərdə olduğu kimi, 1 yanvar-31 yanvar 2020-ci il tarixlərində deyil, bu ilin 16 dekabrında başlayaraq, 31 yanvar 2020-ci ilə qədər davam edəcəyinə dair qərar verib.**



## *İbrahim Rüstəmli: "Orduya çağırış probleminin psixoloji, siyasi, hərbi və digər səbəbləri var"*

Maraqlı məqam odur ki, orduya çağırış müddətinin artırılması səbəbinə Ermənistan hökuməti aydınlıq gətirmir. Nəşrin yazdığına görə, hərbi komissarlığa verilən tapşırıqları yerinə yetirmək üçün daha çox vaxt lazım olduğu güman edilə bilər.

O da məlumdur ki, Ermənistan hakimiyyəti nə qədər gizlətsə də, orduya çağırışla bağlı ciddi problemlər var. Erməni gəncləri orduda xidmət etmək istəmir və müxtəlif vasitələrlə çağırışdan yayınırlar. Dəfələrlə Ermənistanda müəyyən valideynlər aksiyalar keçirib bəyan ediblər ki, övladlarının Qarabağda ölməsini istəmirlər. Onu da qeyd edək ki, hazırda Ermənistanda hərbi xidmətdən yayınan gənclərin sayı 11 mindən çoxdur. Bu günlərdə o da məlum oldu ki, Ermənistanda hərbi xidmətdən yayınmaq üçün rüşvət halları kəskin artıb. Bununla əlaqədar bir neçə zabit cinayət məsuliyyətinə cəlb edilib.

Bütün bunların fonunda, belə güman etmək olarmı ki, çağırışda ciddi problemlər olduğundan, Ermənistanda çağırış müddət uzadılır?

Məsələyə münasibət bildirən ehtiyatda olan polkovnik-leytenant, hərbi ekspert İbrahim Rüstəmlinin sözlərinə görə, müddətin uzadılması başlıca olaraq çağırışla bağlı mövcud olan ciddi problemlərlə əlaqədardır: "Ermənistanda orduya çağırışla bağlı problemlər yeni deyil. Müharibənin ilk illərində bununla bağlı Ermənistanda ciddi problemlər var idi. Bu gün də həmin problemlər qalmaqdadır. Təxminən 5 il əvvəl bununla bağlı Ermənistanda çox ciddi problem yaranmışdı. Bir nəfər də olsun çağırışçı hərbi komissarlığa müraciət etməmişdi. Hətta vəziyyət o yerə gəlib çatdı ki, prezident yanında bununla bağlı fövqəladə iclas keçirildi. Deməyim odur ki, Ermənistanda orduya çağırışla bağlı çox ciddi problemlər var. Orduya çağırış probleminin psixoloji, siyasi, hərbi və digər səbəbləri var. Psixoloji səbəbi odur ki, dinc erməni əhalisinin böyük bir hissəsi öz övladlarının Qarabağda xidmət etməsini istəmir. Çünki orada erməni silahlı qüvvələrində çox ciddi problemlərlə üzləşir. Bununla belə, ümumən erməni ordusunda ciddi mənəvi problemlər var. Məsələ ondadır ki, orduda xidmət edən əsgərlər kateqoriyaya bölünür. İrəvan ermənilәri Qarabağ ermənilərinə ikinci sort adam kimi baxırlar. İrəvanda yaşayan əhali istəmir ki, övladları Qarabağa göndərilsin. Dinc erməni əhalisini düşündürən məsələ ac qarnını doydurmaqdır. Qarabağ məsələsi onlar üçün artıq yükdür. Erməni əhalisi üçün bu yükü daşımaq çox çətindir.

*"Hakimiyyət problemin qismən həllini çağırış müddətinin uzadılmasında görür, amma..."*

Ermənistanda bəzi QHT-lər açıq şəkildə bəyan edirlər ki, bizim Qarabağ problemimiz yoxdur. Əslində, Ermənistan əhalisini Qarabağa bağlayan mənəvi, psixoloji, intellektual tellər çoxdan qırılıb. Sadəcə, hakimiyyət və onu təmsil edən qüvvələr bu kartı əldən vermək istəmirlər. Ermənistanda demoqrafik durum çox acınacaqlı vəziyyətdədir. Əhalinin sayı artmır, ölkəni tərk edənlər içində əmək qabiliyyətli əhali üstün çəkiyə malikdir. Bütün bunlar əlbəttə ki, orduya çağırışla bağlı ciddi problemlər yaradır. Ona görə də hakimiyyət orduya çağırış probleminin qismən həllini çağırış müddətinin uzadılmasında görür. Ancaq bu, sözügedən problemi həll edə bilməz".

***Vidadi ORDAHALLI***

# Gürcüstanda yeni Saakaşvili - Xazaradze...

**Gürcüstanın TBC bankının təsisçisi, ölkənin ən varlı adamlarından sayılan Mamuka Xazaradze siyasi partiya təsis etmək niyyətini açıqlayıb. Onun sözlərinə görə, ilk olaraq ictimai hərəkat yaradılacaq: "Yaxın günlərdə təşkilatın təsis olunacağı yeri, tarixi və vaxtı elan edəcəyik. Daha sonra tezliklə siyasi partiya da qurulacaq".**



Bankir əhalidən güclü dəstəyin olduğunu və buna görə də hərəkat və partiyanın yaradılması prosesinin sürətləndirildiyini deyib. Keçmiş baş nazir Giorgi Kvirikaşvilinin yeni siyasi birliyə qoşulacağı barədə yayılan xəbərlərə münasibət bildirən M.Xazardze onunla əlaqə saxlamadığını qeyd edib: "Giorgi Kvirikaşvili siyasətdən gedib və beynəlxalq təşkilatda çalışır".

Artıq Xazaradze Gürcüstanın Avropaya ən yaxın çıxışı olan və özünün reallaşdırdığı liman layihəsinin olduğu Anakliyadan hərəkatın fəaliyyətə başladığını elan edib. Erməni KİV-i onun siyasətə gəlişini Saakaşvili ilə müqayisə edir. Hətta Xazaradzeni Gürcüstanın yeni Saakaşvilisi də adlandırırlar. Qeyd edilir ki, bu şəxsin hakimiyyətə gəlişilə Gürcüstanın strateji kursu dəyişə bilər. Yəni iddia olunur ki, Gürcüstanın Türkiyə və Azərbaycandan olan asılılığı azaldılacaq. Xazaradzenin fəallaşması və hakimiyyətə gəlmə şansı, bu baş tutarsa, onun mümkün təsirləri necə ola bilər?

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə açıqlamasında bildirib ki, Xazaradzenin gələcək siyasətdə kimin yanında olacağını bilmək üçün onun keçmişinə, ələlxüsus öz kapitalını hansı dövlətin hesabına qazanmasına baxmaq lazımdır: "Postsovet məkanındakı oliqarxlar öz pullarını adətən Rusiyanın hesabına qazanmışlar. Lakin bank sektorundan söhbət gedirsə, burada tək Rusiya ilə məsələ bitmir. Belə ki, Xazaradze Gürcüstanın ən böyük bankı olan TBC bankın rəhbəridir. 2014-cü ildə London Fond Birjası TBC bankı öz əməliyyatlarında iştirak etməyə dəvət edib. Lakin postsovet məkanında Rusiyanın icazəsi olmadan bir yarpağın belə düşə bilməməsini nəzərə alaraq, bu məsələdə Rusiya variantını da nəzərdən qaçıra bilmərik. Təbii ki, Gürcüstanda 2020-ci il seçkilərinə əl qoymaq istəyən qüvvələr Xazaradzeni ortaya çıxarıb.

Qeyd etdiyimiz kimi, Rusiya ehtimalı zəifdir, amma istisna edilə bilməz. Bunu düşünməyə əsas verən Xazaradzenin nəhəng maliyyə kapitalına malik olmasıdır. Beləliklə, onu Rusiya meydana çıxarıbsa, İvanişvilinin və "Gürcü arzusu"nun öz nüfuzunu itirdiyini görərək, Saakaşvilinin cildində yeni bir siyasətçi meydana ataraq, Gürcüstandakı hakimiyyəti əldən verməmək məqsədi daşıyırlar. Əgər o, ABŞ, İsrail, İngiltərə siyasi texnoloqlarının hazırladığı kadrdırsa - bu ehtimal çox böyükdür, onlar artıq 2020-ci ildə seçkilərdə triumfa hazırlaşırlar və "Gürcü arzusu" dövrünü bitirib yenidən Saakaşvili dönəminə bənzəyən yeni çağ başlamaq istəyirlər. Lakin bu, Saakaşvili yox, Rusiyanın arzuladığı oliqarx, İngiltərənin arzuladığı bankir, İsrailin arzuladığı sələmçi, ABŞ-ın arzuladığı Qərbpərəst obrazlarını özündə ehtiva edən Xazaradzedir. "Gürcü arzusu"nun nümayəndəsi, parlamentin müdafiə komitəsinin rəhbəri Sesiaşvilinin yeni hərəkatı alqışlaması, Saakaşvilinin isə, əksinə, onu sərt tənqid etməsi göstərir ki, ya Rusiya 2020-ci ildə Saakaşvilinin meydana çıxıb qələbə qazanmasından narahat olduğu üçün Xazaradzeni ortaya ataraq prosesləri qabaqlayıb hakimiyyət dəyişikliyinə imkan vermək istəmir, ya da Qərbdə Saakaşvili dövrü bitib və onunla işləmək istəməyən güc - qərarqəbuletmə mərkəzləri Xazaradzenin timsalında Gürcüstanı Avrointeqrasiya yolu ilə aparacaq yeni lideri meydana çıxarmaq ehtiyacı duyublar".

***Məhəmmədəli QƏRİBLİ***

# KTMT çərçivəsində yeni Qarabağ prosesi başlanır - Ermənistanın əleyhinə, Azərbaycanın xeyrinə, Rusiyanın dəstəyilə...



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Azərbaycan rəsmi səviyyədə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) müşahidəçi statusu almaq üçün hər hansı müraciət etməsə və bu istiqamətdə heç bir addım atmasa da, bu məsələnin gündəmə gətirilməsi Ermənistanda böyük təşviş yaratmaqda davam edir.**

İrəvanda belə hesab edilir ki, Azərbaycan hansısa formada KTMT-də təmsil olunsa, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistanın mövqeləri daha da zəifləyəcək. Çünki münaqişə yenidən aktiv fazaya keçəcəyi təqdirdə Ermənistan hansısa formada KTMT-dən, xüsusən də Rusiyadan yardım ala biləcəyinə hələ də ümidlər bəsləyir. Amma digər KTMT üzvləri Ermənistanın bu niyyətlərinin qətiyyən reallığa söykənmədiyini dəfələrlə qəsmi mövqeləri ilə nümayiş etdiriblər.

Digər tərəfdən reallıqda görünən budur ki, Ermənistandan fərqli olaraq, digər KTMT üzvləri, xüsusən də Rusiya Azərbaycanı təşkilatın sıralarında görmək istəyir. Rusiya baş nazirinin müavini Yuri Borisov və KTMT-nin baş katib əvəzi Valeri Semerikovun Azərbaycanın təşkilata müşahidəçi kimi üzv ola biləcəyinə dair son açıqlamaları da bunu təsdiq edir. Belə durum isə Ermənistan tərəfindən böyük hiddətlə qarşılanır. Bu ölkənin Xarici İşlər Nazirliyinin mətbuat katibi Anna Nağdalyan iddia edir ki, İrəvanın razılığı olmadan Azərbaycanın KTMT-də müşahidəçi statusu alması ilə bağlı hər hansı bir rəy yalnız rəy səviyyəsində qalacaq. Amma Rusiya mediası yazır ki, Moskva istədiyi təqdirdə Ermənistanın buna qarşı çıxması sadəcə mümkün olmayacaq. Məsələ ilə bağlı "regnum.ru" portalı yazır: "Moskva Cənubi Qafqazda bələdləmə aparır. İstisna deyil ki, o, Dağlıq Qarabağ münaqişəsini tənzimləməkdə siyasi praktikanın yeni yanaşmalarını tətbiq etməyə hazırlaşır. Rusiyanın hərbi ekspertləri ideya səsləndirirlər ki, Azərbaycan və Ermənistanın KTMT-də iştirakı "iki ölkə arasında silahlı münaqişə risqini azalda bilər".

Rusiya baş nazirinin birinci müavini Yuri Borisovun İrəvanda hərbi-iqtisadi əməkdaşlıq üzrə Dövlətlərarası komissiyanın XVII toplantısında "Rusiya Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında müşahidəçi statusu almağına qarşı deyil" və "bu təkcə Azərbaycana aid deyil" bəyanatı sensasiya kimi qəbul edilir. Ermənistan baş verənlərdən çox narahatdır. Xatırladaq ki, Ermənistan parlamentinin xarici əlaqələr üzrə komissiyası lap bu günlərdə KTMT nizamnaməsinə təşkilatla münasibətləri dərinləşdirmək istəyən ölkələr üçün müşahidəçi statusu nəzərdə tutan düzəliş qəbul edib. Ermənistanın müşahidəçi ilə bağlı narahatlığı aşağıdakından qaynaqlanır: Bakıya belə bir status verilə bilərmi. Bütün əlamətlərə görə, Moskva durumu yoxlayır. KTMT baş katibi vəzifəsini icra edən Valeri Semerikov durumu şərh edərək sıradakı şəkildə fikir bildirib: "Müşahidəçi, tərəfdaş, üzv olmaq haqda bütün bəyanatlar, yaxud ərizələr müəyyən edilmiş şəkildə KTMT katibliyinə daxil olmalıdır. Məndə Azərbaycandan heç bir ərizə yoxdur. Məsələyə baxılmayıb. Kimsə haradasa tribunadan fikir deyib, şəxsi düşüncəsini ifadə edib". Amma fikrimizcə, Borisovun bəyanatını, çətin ki, siyasi improvizasiya saymaq olar. Onda İrəvan və Bakıya açıq "siqnallar" var. Birincisi: Moskva İrəvana KTMT-ni "antiazərbaycan yönündə" siyasiləşdirmək, bu qurumu öz maraqlarının girovuna çevirmək imkanı verməz. İkincisi: Bakı KTMT-də müşahidəçi statusu almaq istəyi göstərsə, belə bir təşəbbüs dəstəklənəcək. Nəhayət, maraq doğuran üçüncü siqnal. KTMT-yə qayıtmaq ideyası əvvəllər Azərbaycan hökuməti tərəfindən səlendirilibsə - düzdür, ancaq müxtəlif ekspert mülahizələri səviyyəsində - indi bu haqda Rusiyanın yüksək məqamlı məmurları danışmağa başlayıb. Niyə? Sanki öz-özünə ağla gələn nəticələrdən birinin mənası belədir: Rusiya özünün Cənubi Qafqaz siyasətinin bəzi cizgilərini təftişə başlayaraq bu mərhələdə hələlik ancaq Ermənistanın "məxməri inqilabı"na münasibətini sərgiləyir.

O biri yandan, "Paşinyan hökumətinin indiyədək İrəvan və Moskva arasındakı strateji ittifaqı şübhə altına qoya biləcək heç bir ifadə və hərəkətə yol vermədiyi"nə işarə edən ekspertlərlə razılaşmaq olar. Amma respublikada antirusiya əhvalının yüksəlişi görünəndir, Moskvada isə İrəvanın daxili siyasətindəki bəzi yönlərə görə ona münasibətdə heç də müsbət olmayan siyasi fon meydana çıxıb. Habelə istisna deyil ki, Rusiya Dağlıq Qarabağ münaqişəsini tənzimləməkdə siyasi praktikaya yeni yanaşmalar tətbiq etməyə başlayır. Rusiyanın hərbi ekspertləri ideya səsləndirirlər ki, Azərbaycan və Ermənistanın KTMT-də iştirakı "iki ölkə arasında silahlı münaqişə risqini azalda bilər", çünki blok iştirakçıları güc işlətməmək prinsipinə tərəfdar olmalı, öz aralarında və başqa dövlətlərlə bütün fikir ayrılıqlarını dinc yollarla həll etməlidir.

Amma hətta bu prinsipləri gözləyəndə də gec, ya tez münaqişənin qarşılıqlı qəbul edilən tənzimlənməsinə keçilməlidir ki, bu da hələlik yalnız nəzəri səviyyədə, bir də qarşılıqlı siyasi iradənin varlığı zamanı mümkündür. Nə qədər fırladırsan-fırlat, amma Bakı və İrəvanın, əlbəttə, Rusiya da daxil olmaqla, ATƏT Minsk Qrupunun həmsədrləri arasında ehtimal edilən hansısa ziddiyyətləri əsasında oyunları nəticələrə səbəb olmayıb. Dəyişikliklər mümkündür, ancaq ya tarixi miqyasda, ya da Ermənistanda titrəşim verən siyasi dəyişikliklərlə. Bununla yanaşı, Tiflisin Abxaziya və Cənubi Osetiyaya görə barışmaz antirusiya mövqeyi tutduğu Gürcüstandan fərqli olaraq, Bakı Rusiyanın barış prosesində iştirakını dəstəkləyir. Buna görə də Azərbaycanın KTMT-yə üzvlüyü, heç olmasa ona görə məntiqli görünür ki, onun Rusiya ilə Dağıstan sahəsində quru sərhədi (284km), Xəzər dənizi akvatoriyası üzrə qonşuluğu var, bu, Moskva üçün isə artıq Azərbaycan üzərindən Dağlıq Qarabağa çıxmaq variantıdır. Paradoks bundadır ki, Bakıdan savayı Ankara və ola bilsin, Tehran da Rusiyanın Xankəndidə hərbi iştirakında maraqlıdır. Dünyada və bölgədə geopolitik durum hissolunan dərəcədə dəyişilir və bütün daxili və xarici oyunçular qeyri-standart deyilən həllər aramağa başlayıblar. Borisov ilk gedişi göstərib. Sıradakını kim edəcək - Vaşinqton, Ankara, ya Brüssel?". Bu şərhdən də aydın görünür ki, Azərbaycanın KTMT-yə qoşulması sırf Qarabağ məsələsinin həllinə hesablanmış addımdır və elə Ermənistanı da qorxudan budur.

Rusiyalı ekspert Yevgeni Mixaylov qeyd edir ki, istənilən halda Azərbaycan istəsə, Ermənistanın narazılığına baxmayaraq, KTMT-də müşahidəçi statusu alacaq: "Azərbaycan KTMT-də müşahidəçi statusu alsa, bu, postsovet məkanında təhlükəsizliyin əldə edilməsi üçün böyük bir addım ola bilər. Siyasi stabillik və iqtisadi inkişafın hökm sürdüyü Azərbaycan bu təşkilata lazımdır. Bakının öz siyasi kursu var və dünya dövlətləri onunla hesablaşır. Hətta müşahidəçi qismində belə bir müttəfiq əldə etməyə bir çoxları can atır. Fikrimcə, ümumdünya siyasi vəziyyətini nəzərə alsaq, bu, Bakı üçün də vacibdir. Bundan əlavə, müşahidəçi qismində Azərbaycan Ermənistan tərəfindən işğal edilmiş ərazilərini istənilən yolla geri qaytarmağa hazır olduğunu KTMT-yə üzv ölkələrə daha asanlıqla sübut edəcək". Onun sözlərinə görə, Azərbaycanı KTMT-yə istənilən statusla qəbul etməyi düzgün saymayan Ermənistanın mövqeyi sadəcə təəccüb doğurur: "İrəvanın qorxusu əbəsdir. Moskva buna sadəcə şad ola bilər. Məhz Rusiya təşkilatın sponsoru və əsas oyunçusudur. Buna görə də, öz burnundan uzağı görə bilməyən Ermənistanın fikrinə ciddi yanaşmaq lazım deyil. Adi qığılcımın böyük müharibəyə çevrildiyi müasir dünyada bu tip uzağı görə bilməmək adətən təhlükəsizlik təminatını və dövlətçiliyi itirməklə nəticələnir". O bildirir ki, İrəvan KTMT-yə üzv ölkələrin Azərbaycana silah satması faktından da narazılığını dilə gətirib. Silah və hərbi texnikanı ucuz qiymətə və ya kreditlə əldə edən Ermənistandan fərqli olaraq, Azərbaycan əldə etdiyi texnikaya görə tam ödəniş edir: "Azərbaycana silah satılması barədə İrəvanın küskünlüyü və ittihamları məsələsinə gəldikdə, Ermənistandan fərqli olaraq, Rusiya və KTMT-yə üzv olan digər dövlətlər Azərbaycanla dostluq münasibətindədir. Buna uyğun olaraq da, Moskva lazım olan silah və hərbi texnikanı satmaq hüququna sahibdir. Silah və hərbi texnikanı uzunmüddətli kredit qarşılığında əldə edən İrəvandan fərqli olaraq, Bakı silah və hərbi texnikadan təhlükəsizliyini gücləndirmək üçün istifadə edir. Ermənistan isə Qarabağdakı separatçıları gücləndirir. Azərbaycan heç vaxt kiminsə torpağını işğal etməyib. Bununla yanaşı, ərazilərin geri qaytarılması üzrə dialoqun olmamasına da icazə verməyəcək. Eyni zamanda nəzərə almaq lazımdır ki, silah Moskva və ya KTMT-nin digər üzvlərindən tədarük edilməsə, digər ölkələr asanlıqla bu rolun öhdəsindən gələcək. Buna isə imkan vermək olmaz. Çünki silah satışı təkcə pul və gəlir yox, eyni zamanda müttəfiq münasibətlərinin möhkəmləndirilməsinə yönəlmiş böyük siyasətdir. Halbuki, hazırki erməni hakimiyyəti Amerika fondlarından çox dəstək alıb və bir çox istiqamətlərdə Rusiya əleyhinə ritorikanı asanlıqla qəbul edir. Amerikalılar tərəfindən Ermənistandakı demokratiyanın inkişafına dair müxtəlif proqramlara milyonlarla dollar yatırılıb. Bu isə açıq-aşkar antirusiya meylinə çevrilir və İrəvanın bütün bədbəxtliklərində Moskva günahlandırılır. Mən əvvəllər də demişəm, gələcəkdə də deyəcəm ki, buna əhəmiyyət vermək lazım deyil. Çünki əhəmiyyət verəndə İrəvan özünü önəmli sayır və aldadılmış tərəf kimi təqdim edir". Bütün bunlar qarşıdakı dövr ərzində KTMT olayı ətrafında olduqca maraqlı proseslərin cərəyan edəcəyini deməyə əsas verir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Moskva və İrəvan arasında sarsılmaqda olan münasibətlərin Nikol Paşinyan iqtidarının gələcəyinə ciddi təsir edəcəyi indi Ermənistanda da getdikcə böyük əksəriyyət tərəfindən qəbul olunur. Bu xüsusda diqqət mərkəzində saxlanan əsas hadisə isə oktyabrın 1-də İrəvanda Avrasiya İqtisadi Birliyinin Ali Şurasının iclasıdır.**

# "Kreml Paşinyanı baş nazir kimi tanımır..."

Rusiya prezidenti Vladimir Putinin bu iclasa gəlib-gəlməyəcəyi hələ də müəmma olaraq qalır. Digər tərəfdən, Putinin gələcəyi təqdirdə Ermənistanın keçmiş prezidenti Robert Köçəryanla təcridxanada görüşəcəyi barədə şayiələr də səngimir. Ermənistanın sabiq baş naziri Qrant Baqratyan belə vəziyyətdə ölkəsini ciddi problemlər gözlədiyini etiraf edir: "Bəli, Putin gizlətmir ki, Robert Köçəryanla dostluq əlaqələri var. Lakin o demək istəyir ki, qardaş, nə üçün adamı bağlamısınız? Mühakimə edin, məhkəmə prosesi başlasın, görək günahkardır, yoxsa yox". Onun sözlərinə görə, Qərb də Köçəryanı azadlıqda görmək istəmir, çünki Köçəryanı rusyönümlü siyasi xadim hesab edir. Baqratyan qeyd edib ki, Putin sadəcə, Qərbin təsirinə qarşı mübarizə aparır: "1 Mart sırf siyasi prosesdir, mən burada cinayət elementi görmürəm. Yaxşı, əgər siyasi prosesdirsə, o zaman Rusiya olduqca səs-küylü şəkildə cavab verəcək və deyəcək ki, Qərbin ağlına düşmüsən?". Baqratyan bildirib ki, Paşinyan hakimiyyəti hesablamalar etməyi bilmir və bütün bunların nəticələrini də saymır.



Eyni mövqeni Dağlıq Qarabağdakı separtaçı rejimin "təhlükəsizlik şurasının" keçmiş katibi Vitali Balasanyan da sərgiləyir: "Paşinyan Ermənistanı məhvə aparır. Mən bunu əsaslandıra bilərəm və əminliklə deyirəm: Paşinyan və onun hökuməti hələ dünəndən istefa verməliydi. Bundan sonra Nikol Paşinyanın hakimiyyətinə heç kim dözən deyil".

Balasanyana görə, Nikol Paşinyan özü 2008-ci ilin 1 mart hadisələrinə görə məsuliyyət daşıyır. Çünki Paşinyan tribunadan kütləni polisləri döyməyə, onların qalxan və dəbilqələrini ələ keçirməyə çağırırdı. Balasanyan istisna etmir ki, yeni hakimiyyətin siyasi uğursuzluqları təcrübəsizliklə bağlı ola bilər. Lakin, onun fikrincə, bu da onlara haqq qazandırmır: "Bizdə heç nə bilməyən, bir az təcrübə keçib sonra rəhbərlik etmək istəyən hansısa adamlar üçün ölkə yoxdur. Belə adamlar gedib bağ-bostan sahəsində işləməli, orada pomidor, xiyar və qarğıdalı yetişdirməlidir". Balasanyan Rusiya ilə pisləşən münasibətlərin Ermənistan üçün ağrılı nəticələrə gətirib çıxaracağını da vurğulayır.

"Jamanak" qəzeti yazır ki, Paşinyan hakimiyyəti Rusiya ilə münasibətləri pisləşdirməklə ölkəni təzyiq hədəfinə çevirib: "Bu fonda da Putin Ermənistana gəlmək istəmir, çünki o, Robert Köçəryanın həbs olunması və Ermənistan hökumətinin Kremlin etibarını cəlb etməməsi ilə bağlı olaraq Paşinyan hakimiyyətindən narazıdır. Burada problemin özəyinin nə olması ortadadır. İki hal hədəflənir. Birincisi, Ermənistan hakimiyyətinə qarşı inamsızlıq və Rusiya hakimiyyəti yanında mənfi münasibət stimullaşdırmaq. Digər hədəf isə Ermənistan cəmiyyəti və onun psixologiyası üzərində işləməkdir, çünki həmin psixologiyada bir hal var, buna görə də Rusiyanın münasibəti hakimiyyətin orijinal bir "zəmanət kuponu" kimi müşahidə olunur. Bu mənada, Putinin gəlib-gəlməyəcəyi hekayəsi Ermənistan cəmiyyəti üçün pratiki olaraq psixoloji testdir".

Digər erməni politoloq Armen Badalyan isə bildirir ki, hadisələrin indiki səpkidə inkişafı Paşinyanın baş nazir postundan devrilməsi ilə nəticələnəcək: "Artıq Paşinyanın reytinqinin aşağı düşdüyü nəzərəçarpan olduğuna görə vaxtından əvvəl baş nazir vəzifəsindən getməsi ehtimal olunur. Rusiya hazırda Ermənistan ictimaiyyətinin siyasi cəhətdən fəal hissəsinin münasibətinə diqqət yetirməyə çalışır. Bu məqsədlə müxtəlif adlar dövriyyədədir. Aydındır ki, Tiqran Sarkisyana qarşı daha çox mənfi mövqe mövcuddur. Karen Karapetyanın adı nisbətən müsbət hallanır. Rusiya bunlardan birini baş nazir vəzifəsinə gətirə bilər, ikincinin şansı isə daha çoxdur". Onun sözlərinə görə, faktiki olaraq Rusiya artıq Paşinyanı Ermənistanın baş naziri kimi tanımır və Ermənistanda yeni, daha çox proqnozlaşdırıla bilən hakimiyyət qurmaq istəyir: "Kimsə hakimiyyət formalaşdırmaq niyyətində olursa, o, köhnələrə yox, yenilərə üstünlük verir. Tiqran Sarkisyan köhnədir, həm də çoxdan yaddan çıxmış biridir. Köçəryan isə unudulmuş namizəddir. Sarkisyana gəldikdə isə, onun namizədliyi istisna olunur, çünki Rusiya üçün Paşinyan kimi Sarkisyan da arzuolunmazdır. Məhz Serj Sarkisyanın vaxtında Rusiya seçim qarşısında qalaraq Paşinyanı qəbul etməli oldu. Buna görə də Serj Sarkisyanın adını Rusiyada eşitmək istəmirlər. Rusiya üçün arzuolunmaz 2 namizəddən biri fəaliyyətdə olan baş nazir, digəri Serj Sarkisyandır". Badalyan 2018-ci ildə Rusiyanın proqramlarında Sarkisyan hakimiyyətinin Paşinyana yox, Karapetyana verilməsinin nəzərdə tutulduğunu vurğulayıb.

Sarkisyanın yeznəsi Mikayel Minasyanın son zamanlar olduqca fəallaşması və deyilənə görə siyasi partiya yaratması məsələsinə toxunarkən o qeyd edib ki, Minasyan-Sarkisyan tandemi ayrı-ayrılıqda nəzərdən keçirilmir: "İkincisi, Minasyan Sarkisyandan ayrılmaq niyyətində deyil. Əksinə, son zamanlar ölkəni idarə edə bilmədiyinə dair Paşinyana ismarıc da göndərib. Bundan sonra Paşinyan Sarkisyanın qardaşına 250 milyon dram vergi cəriməsindən yayınma işini yükləyərək cinayət işi açıb. Bu o deməkdir ki, Paşinyan hakimiyyətin təhvil verilməsi haqqında razılaşmanın ləğv olunması ilə bağlı Minasyanın təklifini rədd edib". Onun sözlərinə görə, Ermənistanda Paşinyanın xaricdən devrilməsini asanlaşdıran bir səbəb də ölkədə Rusiyaya bağlı qüvvələrin çoxluğu və siyasi mübarizə mədəniyyətinin yoxluğudur:"Məsələn, Ermənistanda partiyanın nə olduğunu bilmirlər, hesab edirlər ki, partiya erməni parlamentində qanun yazmaq üçün, yaxud mandat əldə etmək üçün zəruridir. Bu halda Rusiya kimi ölkələr asanlıqla Ermənistanın daxili siyasətinə nüfuz edib istədiklərini edirlər".

***Tahir TAĞIYEV***

# Səudiyyənin neft yataqları vuruldu, hədəfdə İrandır, qiymət 100 dolları hədəfləyir...

**Dünya miqyasında bu gün ən çox müzakirə predmetinə çevrilən məsələlərdən biri də Səudiyyə Ərəbistanının neft ixracını ixtisar etməsi barədə xəbərlərdən sonra neftin qiyməti ilə bağlıdır. Xatırladaq ki, İranın dəstəklədiyi Yəmənin şiə qruplaşmasının Səudiyyə Ərəbistanının neft emalı zavodlarına və neft yataqlarına həyata keçirdiyi hücum qiymətlərlə bağlı şok effekti yaradıb.**

Neft kəskin bahalaşıb və qiymətlərin maksimum artımı 19% təşkil edib. Məlumata görə, "Brent" markalı neftin noyabr fyuçerslərinin qiyməti bir barrel üçün 71,62 dollara qədər bahalaşıb.

Son məlumatlara görə, neftin bahalaşması davam etməkdədir və bazarda ciddi təşviş hökm sürür. Çünki Səudiyyə Ərəbistanının neft hasilatı və ixracını nə vaxt bərpa edəcəyi bilinmir. Bu isə bazarda neftlə bağlı ajiotajı böyüdür. Çünki husilərin həyata keçirdiyi dron hücumu nəticəsində Səudiyyə Ərəbistanında gündəlik neft hasilatı 5.7 milyon barrel azalıb, bəzi məlumatlara görə isə ümumiyyətlə dayanıb. "Saudi Aramco" şirkətinin gündə 7 milyon barrel neft emal edən zavodu sıradan çıxıb. Səudiyyə Ərəbistanının energetika naziri Əbdüləziz bin Salman da təsdiq edib ki, gündəlik xam neft və qaz hasilatı 5,7 milyon barrel azalıb: "Bu hücumlar krallığın təkcə həyat önəmli obyektlərinə deyil, dünya neft tədarüklərinə və onun təhlükəsizliyinə tuşlanıb, buna görə də dünya iqtisadiyyatı üçün təhlükə təşkil edir". Dronların hücumu "Saudi Aramco" şirkətinin dünyada səhmlərini ümumi, ən irihəcmli yerləşdirmə çərçivəsində açıq bazara çıxmaq üçün addımlar atdığı bir anda baş verib.




Bütün bunlar bazara ciddi təsir edir və qiymətləri artırmaqda davam edir. "Reuters" agentliyinin dərc etdiyi ekspert rəyində deyilir ki, Səudiyyə Ərəbistanında iki neftayırma zavoduna edilmiş bombalı hücum dünya bazarında neftin qiymətinə təsir edəcək. Ümumi rəyə əsasən, qarşıdakı 30 gün ərzində zavodlarda vəziyyət normallaşdırılmasa, sürətli şəkildə qiymət artımı olacaq. Analitik Bob Maknelli hesab edir ki, qarşıdakı həftələrdə "qara qızıl"ın qiyməti 15-20 dollar səviyyəsində yüksələcək. Belə bir vaxtda ABŞ prezidenti Donald Tramp Səudiyyə Ərəbistanının neft obyektlərinə hücumlardan sonra bazarda vəziyyəti sabitləşdirmək üçün, zəruri olduqda, ölkədə mövcud olan neftin strateji ehtiyatlarını istifadə etməyə icazə verib. ABŞ Energetika Nazirliyinin məlumatına görə, 1970-ci illərin neft böhranından sonra yaradılmış bir neçə neft anbarında ümumilikdə 630 milyon barrel neft var. İndi ABŞ onlardan istifadəni istisna etmir. Bununla belə, neft bazarında ABŞ-ın bu addımı da hansısa işə yaramayıb.

Əksinə, ABŞ-dan gələn xəbərlər neftin qiymətinin daha da artmasını istisna etmir. Məsələ burasındadır ki, bu vəziyyətdə ABŞ-ın İrana qarşı hərbi əməliyyatları tezləşdirməsi gündəmə gəlib. ABŞ senatoru Lindsi Qrehem isə Səudiyyə Ərəbistanının neft yataqlarına edilən hücumlarla bağlı İranı günahlandıraraq, Ağ Evi bununla əlaqədar qəti tədbirlər görməyə çağırıb: "Rəsmi Tehran təxribatlarına və uranın zənginləşdirilməsi prosesinə davam edərsə, ABŞ masa üzərinə İranın zavodlarına hücum planını qoymalıdır". Qeyd edək ki, ABŞ Dövlət Departamentinin rəhbəri Maykl Pompeo da Səudiyyə Ərəbistanının neft müəssisələrinə pilotsuz uçan hava aparatları ilə gerçəkləşdirilən hücumlarda İranın əli olduğunu deyib. Maykl Pomeo Yəmənin "Ənsar" üsyan hərəkatının partlayışlarla bağlı məsuliyyəti öz üzərinə götürməsi faktına inanmadıqlarını bildirib. Dövlət katibinin sözlərinə görə, dronların Yəməndən gəlməsinə dair heç bir sübut yoxdur: "İran prezidenti Həsən Ruhani və xarici işlər naziri Cavad Zərif diplomatiya ilə maraqlanırmış kimi görünsə də, Səudiyyə Ərəbistanına qarşı təşkil edilən 100-ə yaxın hücumun arxasında Tehranın əli var. İran dünya enerji tarixində bu günə qədər misli görünməmiş hücum təşkil etdi. Bu hücumu Yəmənin etməsi ilə bağlı fakt yoxdur. Bütün dünyanı açıq və sərt şəkildə İranın hücumlarını qınamağa çağırırıq. İran bu hücuma görə məsuliyyət daşıyır". İran isə ittihamları rədd edir. Ölkənin Xarici İşlər Nazirliyinin nümayəndəsi Abbas Musəvi bildirib ki, Səudiyyə Ərəbistanına edilən hücumların arxasında İranın dayanmasına dair ABŞ tərəfinin bəyanatları tamamilə yalandır. O vurğulayıb ki, ABŞ-ın maksimum təzyiq siyasəti maksimum yalanla müşayiət olunur. İslam İnqilabı Keşikçiləri Korpusu (İİKK) isə bu arada, İrana hərbi təcavüz olacağı təqdirdə, ABŞ hərbi bazalarına zərbə endirməklə hədələyib. İİKK-nin Kosmik Qüvvələr komandiri Əmir Əli Hacızadənin sözlərinə görə, ABŞ-ın hərbi təcavüzü vəziyyətində İran öz raketləri ilə bölgədə yerləşən Amerika hərbi bazalarına və hərbi gəmilərinə zərbələr endirəcək. Onun sözlərinə görə, İran hərbçilərinin hədəfi altında ABŞ-ın iki bazası və Yaxın Şərqdə bir Amerika gəmisi var.

Donald Tramp isə İrana qarşı savaşı istisna etmir. O bəyan edib ki, ABŞ Ər-Riyaddan "Saudi Aramco"nun neft obyektlərinə hücumun arxasında kimin dayandığına dair bəyanat gözləyir və buna əsaslanaraq hərəkət edəcəklər: "Səudiyyə Ərəbistanının neft sektoruna hücüm edilib. Güman etmək üçün əsaslar var və biz bilirik ki, bunda kim günahkardır. Biz tam döyüş hazırlığındayıq və hər şey təsdiqləmədən asılı olacaq. Amma biz gözləyirik görək, krallıq nə deyəcək, hücumun arxasında kim durur və biz sonra necə hərəkət etməliyik". Son məlumatlara görə, ABŞ Fars körfəzində yenidən hərbi qüvvələrini artırmaq qərarını verib.

Rusiyalı senator Aleksey Puşkov da bildirir ki, Səudiyyə Ərəbistanının neft obyektlərinə hücumlardan sonra ABŞ-la İran arasında münasibətlərin korlanması yeni müharibəyə gətirib çıxara bilər. Onun sözlərinə görə, amerikalı senator Lindsi Qrehem neft obyektlərinə zərbə çağırışı ilə ABŞ-ı Tehrana qarşı müharibəyə cəlb etmək istəyir: "İran ətrafındakı vəziyyət sakitləşmir. Yaxın müharibə ən real variantdır". Məhz belə vəziyyət fonunda neftin qiymətinin yenidən yüksək həddə qalxması açılmaz sayılır. Hətta ABŞ və İran arasında münasibətlərin bir qədər də gərginləşməsi fonunda qiymətlərin 100 dollarıq həddə çatması belə gözlənir. Neft hasialtçısı kimi, baş verən proseslər Azərbaycan tərəfindən də diqqətlə izlənir.

***Nahid SALAYEV***

# Azərbaycanda yeniyetmələrin cinayətləri sayca azalır - polisin profilaktik işi həlledici səbəb kimi...

**Azərbaycanda ötən il cinayət törədən 14-17 yaşlı yeniyetmələrin sayı açıqlanıb. Məlum olub ki, sözügedən yaş kateqoriyasında olan yeniyetmələrin törətdiyi cinayətlərin sayı azalıb. Bunu rəsmi statistik rəqəmlər də sübut edir. Belə ki, Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, 2018-ci ildə həmin yaşlarda olan yeniyetmələr 471 uşaq cinayət törədib.**

*"Görülən tədbirlər sayəsində yeniyetmələrin cinayətə təhrik olunmasının da yolları bağlanıb"*

2017-ci ildə onların sayı 486 olub. 2000-ci ildə bu göstərici 573 nəfər təşkil edib. Cinayət törədən yeniyetmələrdən 460-ı oğlan, 11 nəfəri qız olub. Uşaqların 115 nəfərinin yaşı 14-15, 362-nin yaşı 16-17 təşkil edib.

Qeyd edək ki, 2000-ci ildə 14-15 yaşında 111 uşaq cinayət törədib. Cinayət törədən uşaqlardan 12-si hadisəni sərxoş vəziyyətdə edib. 14-17 yaşda cinayət törədən uşaqlardan 301-i məhkum olunub. Məkum olunanlardan 74-ü azadlıqdan məhrum edilməklə, digərləri isə islah işləri, şərti məhkum etmə, ictimai işlər və cərimə yolu ilə cəzalandırılıb.

Bununla yanaşı, həbs cəzasına məhkum edilmiş yeniyetmələrin sayında da 15 faiz azalma müşahidə edilib. Yeniyetmələr cəmiyyətin ən həssas təbəqəsidir. Azyaşlılar cəmiyyətdəki neqativ təlatümləri çox sərt qarşılayırlar. Çox vaxt yeniyetmələr öz cinayətkar mühitlərini özləri formalaşdırırlar. Yeniyetmələrin cinayətkara çevrilməsinə təsir edən amillər əsasən bunlar hesab edilir: narkomaniyaya cəlbolunma, fahişəlik, mərc oyunları, ailə üzvlərinin əxlaqsız həyat tərzi, sərxoşluq, qalmaqallar, davalar, davalara cəlbedilmə, uşaqların tüfeyli, eqoist böyüdülməsi, uşaqların maraqlarına valideynlərin diqqət yetirməməsi, kobudluq və despotizm.

Müsbət haldır ki, belə cinayətlərin sayında azalma tendensiyası var. Maraqlıdır, uşaq cinayətlərinin sayının azalması nə ilə bağlıdır? Bunda polisin apardığı profilaktik işlər nə kimi rol oynayıb?

Məsələyə münasibət bildirən "Polisə Dəstək" İctimai Birliyinin sədri Şəmsəddin Əliyevin sözlərinə görə, uşaq cinayətlərinin sayının azalmasının səbəbi polisin yeniyetmələr və bütövlükdə, uğursuz ailələr arasında profilaktik tədbirləri gücləndirməsi ilə əlaqədardır: "Həqiqətən də son illər yetkinlik yaşına çatmayan uşaqların törətdiyi cinayətlərdə bir azalma

*Şəmsəddin Əliyev: "Zaman-zaman polisin bu istiqamətdə göstərdiyi peşəkar fəaliyyət və profilaktik tədbirlərin həyata keçirilməsi öz nəticəsini verir"*




dinamikası var. Görünən odur ki, zaman-zaman polisin bu istiqamətdə göstərdiyi peşəkar fəaliyyət və profilaktik tədbirlərin həyata keçirilməsi öz nəticəsini verir. Bu tədbirlər ondan ibarətdir ki, Daxili İşlər Nazirliyi Təhsil Nazirliyi ilə birlikdə orta məktəblərdə həddi-buluğa çatmayan uşaqlarla işləyir, məktəblərdə müvafiq maarifləndirmə işləri aparılır. Polis orqanları ilə təhsil qurumları aradında bu yöndə birgə fəaliyyət mövcuddur. Koordinasion qaydada yeniyetmələr tərəfindən törədilə biləcək cinayətlərin qarşısının alınması ilə bağlı profilaktik tədbirlər görülür. İctimai münasibətlərə yönələn bütün qəsdlərin qarşısının alınmasında aparılan müvafiq maarifləndirmə və profilaktik tədbirlər öz səmərəsini verir. O da məlumdur ki, çox zaman yetkinlik yaşına çatmayan uşaqlar cinayət törətməyə təhrik olunurlar.

Müşahidələr göstərir ki, aparılan profilaktik tədbirlər sayəsində yeniyetmələrin cinayətə təhrik olunmasının da yolları bağlanıb. Bir sözlə, DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinin kollektivinin orta məktəblərlə birlikdə həyata keçirdiyi profilaktik tədbirlər öz bəhrəsini verir. Bütün bunlar, nəticə etibarilə, yeniyetmələr tərəfindən törədilən cinayətlərin azalmasına öz təsirini göstərir".

***Vidadi ORDAHALLI***

# Qida Təhlükəsizliyi Agentliyi uşaq bağçalarında qüsur aşkarlayıb...

**"Uşaq bağçalarında aparılan monitorinqlər zamanı aşkarlanan əsas nöqsanlardan biri işçilərin qida təhlükəsizliyi ilə bağlı normativ-texniki sənədlərin tələbləri ilə tanış olmamalarıdır".**



Bunu Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) Bakı Regional bölməsinin rəisi Əkbər Əliyev media nümayəndələrinə açıqamasında deyib.

O bildirib ki, uşaq bağçalarının işçiləri tez xarab olan məhsulların hansı şəraitdə saxlanılmasından məlumatsızdırlar: "Onlar məhsulun hansı qaydada tədarük olunması, hazırlanması barədə məlumatsızdırlar. Əsas nöqsanlar məhsulların saxlanma rejimlərinə riayət edilmədən istifadə edilməsi halları ilə bağlıdır. AQTA regional bölmələrinin əməkdaşları həmin müəssisələrin işçilərinə normativ-texniki sənədlərin tələblərini izah edirlər. Bütün sənədlər toplanandan sonra nəticələr barədə ictimaiyyətə geniş məlumat veriləcək".

*Aytəkin Kamranqızı: "Bəzi məktəbəqədər təhsil müəssisələrində qidalar düzgün şəkildə saxlanılmır"*

Ekspertlər də bildirir ki, uşaq bağçalarında məhsullar saxlanma rejimlərinə riayət edilmədən istifadə edilir.

Sosioloq Aytəkin Kamranqızı bildirdi ki, bəzi məktəbəqədər təhsil müəssisələrində qidalar düzgün şəkildə saxlanılmır. Aidiyyəti qurumlar dəfələrlə apardıqları monitorinq zamanı bağçaların anbarlarında məhsulların saxlanması zamanı texniki normalara riayət olunmadığını, hətta saxlanma rejimləri müxtəlif olan məhsulların eyni sahədə və eyni şəraitdə saxlanıldığı bəlli olub. Təbii ki, belə olan şəraitdə saxlanma rejimləri fərqli olan məhsullar eyni yerdə olarsa bu hal müxtəlif növ xəstəliklərin yaranmasına səbəb olar. Bu sahəyə aidiyyatı qurumlar ciddi nəzarət etməlidir".

**Həmsöhbətimiz onu da əlavə etdi ki, bağçaya gələn ərzaq məhsullarının saxlama müddətinə də riayət olunmalıdır: "Məhsullar üstü açıq formada deyil, qapalı şəkildə saxlanılmalıdır ki, havada olan bakteriya ərzağa keçməsin".**

***Günel CƏLİLOVA***

**Bu gün aqrar sahəni dərmansız təsəvvür etmək mümkün deyil. Ancaq yerli və xarici ekspertlər kənd təsərrüfatında istifadə edilən dərmanların həm məhsuldarlığa və həm də onun keyfiyyətinə təsir etdiyini bəyan edirlər. Alimlərin araşdırmalarına görə, aqrar sahədə zərərvericilərə qarşı istifadə edilən dərman preparatları, eyni zamanda, digər faydalı həşəratların məhvinə səbəb olur.**

# Azərbaycan Milli Elmlər Akademiyası Kənd Təsərrüfatı Nazirliyinin ənənəvi təcrübəsinə qarşı...

***Nicat Nəsirli:** "Pestisidlər arasında elələri var ki, onlar arıçılığa, insan səhhətinə, ekologiyaya ziyan vurur, ancaq..."*



Burada əsasən arı və tozlanmada iştirak edən digər həşəratların adları göstərilir. Pestisidlərin hətta insan səhhəti üçün də təhlükəli olduğu bildirilir.

Azərbaycan Milli Elmlər Akademiyasının Zoologiya İnstitutunun direktoru Elman Yusifov AZƏRTAC-a müsahibəsində bildirib ki, hazırda bütün dünyada kənd təsərrüfatında məhsuldarlıq getdikcə azalır. Bu proses ölkəmizdən də yan keçmir. Bunun müxtəlif səbəbləri var - torpağın yorulması, iqlim dəyişmələri və s. Bu səbəblərdən biri, bəlkə də ən vacibi tozlandırıcı həşəratların sayının azalması, onların məhv olmasıdır.

O bildirib ki, kənd təsərrüfatında ziyanvericilərə qarşı istifadə edilən herbisidlər, pestisidlər tozlandırıcı həşəratların, böcəklərin məhv olmasına səbəb olur, nəticədə məhsuldarlıq azalır.

Aqrar təsərrüfatda istifadə olunan dərmanlar məhsuldarlığa necə təsir edir? Mövzu ilə bağlı kənd təsərrüfatı sahəsi üzrə mütəxəssis Nicat Nəsirliyə müraciət etdik.

N.Nəsirli "Bakı-Xəbər"-ə açıqlamasında qeyd etdi ki, aqrar təsərrüfatda elə dərmanlar istifadə olunur ki, onlar bitkinin fizioloji inkişafını sürətləndirir: "Ümumiyyətlə, kənd təsərrüfatında istifadə olunan dərman preparatları, pestisidlər mürəkkəbdir. Onların yüzdən çox çeşidi var. Pestisidlər arasında elələri var ki, onlar arıçılığa, insan səhhətinə, ekologiyaya ziyan vurur. Ancaq biz o pestisidlər olmadan keçinə bilmirik. Nəzərə almaq lazımdır ki, kənd təsərrüfatının bütün sahələri üçün ziyanvericilərin təhlükəsi var. Bu səbəbdən də məhsulu zərərvericilərə qurban verə bilmərik. Ona görə də pestisidlər kənd təsərrüfatında tətbiq olunmalıdır. Xüsusən də pambıqçılıqda dərmanlardan mütləq istifadə olunmalıdır".

*"Aqrar təsərrüfatda problem pestisidlərin tətbiq olunması deyil, onların istifadəsi zamanı texniki təhlükəsizliyə riayət edilməməsidir"*

Həmsöhbətimizin sözlərinə görə, aqrar təsərrüfatda problem pestisidlərin tətbiq olunması deyil, onların istifadəsi zamanı texniki təhlükəsizliyə əməl olunmamasıdır: "Xatırladım ki, ötən il bəzi bölgələrdə pambıq sahələrində zəhərlənmə baş verdi. Zəhərlənməyə səbəb pestisidin tətbiq olunması deyil, onun tətbiq olunduğu sahədə maarifləndirmə işinin aparılmaması və insanların həmin əraziyə yaxın məsafədə işləməsi idi. Belə olan halda, işçilər hava yolu ilə zəhərləndilər. Ancaq indi bu sahədə vəziyyət müsbətə doğru dəyişib. Belə ki, pestisid tətbiq olunan pambıq, qarğıdalı, günəbaxan və üzümçülük sahələrində kəskin tərkibli dərmanlardan istifadə olunur. Həmin sahələrdə xüsusi maarifləndirmə lövhələri yerləşdirilir".

***Günel CƏLİLOVA***

---

**Yenicə ailə quran gənclərin adətən böyük həvəslə seyr etdikləri bir mənzərə var. Parklarda totuq uşaqların valideynlərinin ətrafında oynaması, arabadakı körpənin şirin qığıltıları, dil açan zaman söylədiyi ilk sözlər... Onlar da bir müddət sonra ata-ana olub körpələrinin əlindən tutaraq parka gəzintiyə çıxacaqları günün xəyalı ilə yaşayırlar. Bəzən isə bu təbii arzu elə xəyal olaraq da qalır.**

# Azərbaycanda hər 10 ailədən birində sonsuzluq problemi və sonsuzluğun ciddi səbəbi...

***Pərvanə Mustafayeva:** "Bəzi valideynlər "USM-də nə işi var?", "həkimə apararam, qızımı ginekoloji masaya çıxarar" düşüncəsilə övladında olan hansısa narahatlıqların müalicəsi üçün həkimdən imtina edirlər"*

***Ramiz Abdullayev:** "Valideynlər uşaqlarının sağlamlığı üçün onları elə uşaq vaxtında həkimə aparmalıdırlar ki, sonradan peşmançılıq yaşanmasın"*



Bütün dünyada gündən-günə artmaqda olan sonsuzluq bəlası neçə-neçə ailəni körpə nəfəsinə həsrət qoyur. Təəssüf ki, ölkəmizdə də övladsız ailələr var. Ailədə boşanma hallarına rəvac verən ilkin səbəblərdən biri elə sonsuzluqdur.Açıqlanan statistik rəqəmlərə əsasən, 2019-cu ilin 6 ayında ölkədə 8 324 boşanma qeydə alınıb. Qeyd etdiyimiz kimi, boşanmaların əsas səbəblərindən birinin sonsuzluq olduğu bildirilir. O da bildirilir ki, ölkəmizdə hər 10 ailədən biri sonsuzluqdan əziyyət çəkir.

Mütəxəssislərin fikrincə, sonsuzluqdan əziyyət çəkənlərin sayının artması səbəbi valideynlərin övladını (qız və ya oğlan) ginekoloji və androloji müayinə etdirməməsidir.

Ginekoloq Pərvanə Mustafayeva bizimlə söhbətində bildirdi ki, qız valideynləri 13-14 yaşından sonra il ərzində övladını ultrasəs müayinəsi etdirməlidir: "Təəssüflər olsun ki, bəzi valideynlər "USM-də nə işi var?", "həkimə apararam, qızımı ginekoloji masaya çıxarar" düşüncəsilə övladında olan hansısa narahatlıqların müalicəsi üçün həkimdən imtina edirlər. Ümumiyyətlə, valideynlər qız uşaqlarının ginekoloji orqanlarının müayinəsindən qorxurlar. Belə olduğu halda, sonsuzluqdan əziyyət çəkən qızların sayı artır. Məlumat üçün bildirim ki, sonsuzluq əlamətləri erkən yaşlarda müəyyən ediləndə onu aradan qaldırmaq daha asan olur. Qızlar 14 yaşından başlayaraq ginekoloqun nəzarətində olmalıdırlar. Ginekoloqa getmək o demək deyil ki, həkim ona hansısa müdaxilələr edəcək. Sadəcə, həkim sual-cavab əsasında, USM vasitəsilə həmin uşaqda ginekoloji problemlərin olub-olmadığını müəyyən edə biləcək. Neqativ hal müəyyən olunanda həmin uşaq qan müayinəsinə cəlb olunmalıdır".

Androloq Ramiz Abdullayev bizimlə söhbətində vurğuladı ki, kişi sonsuzluğunun səbəbləri müxtəlifdir. Səbəblərdən biri də uşaq yaşlarında keçirilmiş olan epidemik parotit ("svinka") xəstəliyidir: "Bu xəstəlik zamanı oğlan uşaqlarında xayalar zədələnir.

Əgər xəstəlik zamanı uşaqda baş verən xayanın iltihabı kifayət qədər güclü olarsa və bu zaman tələb olunan müalicə kursu aparılmazsa, bu, son nəticədə xayaların funksiyasının xeyli dərəcədə pozulmasına və sonsuzluğa səbəb ola bilər.

**Məhz buna görə uşaqlara epidemik parotitə qarşı vaxtında müayinə, müalicə və peyvənd edilməsi tövsiyə olunur. Fərqi yoxdur, oğlan və ya qız, valideynlər uşaqlarının sağlamlığı üçün onları elə uşaq vaxtında həkimə aparmalıdırlar ki, sonradan peşmançılıq yaşanmasın".**

***Günel CƏLİLOVA***

# Azərbaycanın dövlət suverenliyi simvollarına da xarici turistlərin marağı artır

***Vaqif Abışov:** "Şəhidlər Xiyabanının xarici turistlər üçün əhəmiyyət kəsb etməsi, onların bu məkanı ziyarət etməsi müsbət haldır"*

**Bakının erməni-bolşevik birləşmələrindən azad olunduğu 15 sentyabr tarixi ölkəmizdə Bakının azadlığı günü olaraq qeyd edilir. Bakının azadlığı uğrunda Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusu böyük şücaət göstərdi. Bakının erməni daşnaklarından xilas edilməsi uğrunda Qafqaz İslam Ordusunun saysız əsgəri şəhid oldu.**



Bu gün Şəhidlər Xiyabanında həm türk şəhidləri, həm də Azərbaycanın suverenliyi, azadlığı və ərazi bütövlüyü uğrunda şəhid olan vətən övladları uyuyur. Şəhidlər Xiyabanında həm "Türk şəhidliyi" abidəsi, həm də şəhidlərimizin xatirəsinə həsr olunan "Əbədi məşəl" abidəsi ucalır. Həmişə olduğu kimi, hər iki abidə paytaxt sakinləri tərəfindən ziyarət edilir və şəhidlərin ruhlarına dualar oxunur.

Son zamanlar diqqətimizi çəkən məqamlardan biri Şəhidlər Xiyabanının yalnız azərbaycanlıların deyil, eyni zamanda, xarici turistlərin də ziyarət etdiyi məkanlardan birinə çevrilməsidir.

15 sentyabr tarixində Şəhidlər Xiyabanını ziyarət edənlər sırasında turistlərin üstünlük təşkil etdiyinin şahidi olduq. Diqqətçəkən məsələlərdən biri odur ki, turistlər bu məkana tərcüməçilərlə gəlirlər. Turistlər "Türk şəhidliyi" və "Əbədi məşəl" abidələrini ziyarət edir, Azərbaycan bayrağına bürünərək fotolar, videolar çəkirlər. Müsbət hal ondan ibarətdir ki, paytaxtımıza gələn turistlər yalnız gəzməli-görməli yerlərimizi deyil, həm də tariximizin bir parçası olan Şəhidlər Xiyabanını da könüllü olaraq ziyarət edirlər. Ən çox ingilisdilli turistlərin Şəhidlər Xiyabanında olması, buradakı şəhidlərin məzarlarını ziyarət etməsi həqiqətən də diqqəti çəkir. Onlar bununla Azərbaycan tarixini öyrənir, xalqımızın azadlıq uğrunda mübarizə səhifələri ilə tanış olur, həmçinin, Qarabağ müharibəsində torpaqlarımızın ərazi bütövlüyü yolunda şəhid olan qəhrəmanlarımızın ömür yolu ilə tanış olurlar.

Şəhidlər Xiyabanının turistlər tərəfindən kütləvi ziyarət edildiyini nəzərə alaraq, Şəhidlər Xiyabanının önündə ingilis, rus dillərində xüsusi lövhələrin qoyulması arzuedilləndir. Bu lövhələrdə burada uyuyan insanların hansı amal uğrunda həlak olduqları qeyd edilməli, 20 Yanvar faciəsi, Dağlıq Qarabağ müharibəsi, eləcə də Bakının azadlığı uğrunda şəhid olan türk əsgərləri haqqında qısa və məzmunlu məlumat həkk olunmalıdır. Bu olduqca vacib bir məsələdir. Belə olduğu halda, turistlər tərcüməçiyə ehtiyac duymadan bu barədə lazımi məlumatlar ala biləcəklər.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Vaqif Abışov hesab edir ki, Şəhidlər Xiyabanının turistlərin marağını cəlb etməsinin böyük əhəmiyyəti var. V.Abışovun sözlərinə görə, turistlər öz gözləri ilə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olan insanların mübarizə yolu ilə tanış olur, bununla da tariximizin bir hissəsini öyrənirlər. Dağlıq Qarabağ münaqişəsinin həll edilmədiyi bir dövrdə və ermənilərin Azərbaycan əleyhinə təxribat apardığı zamanda xarici turistlərin Şəhidlər Xiyabanında gördükləri gerçəklikləri öz ölkələrində Azərbaycanın xeyrinə təbliğ edəcəklərini deyən V.Abışovun sözlərinə görə, bu da olduqca vacibdir. "Şəhidlər Xiyabanı Azərbaycan tarixinin bir hissəsidir. 1918-ci ildə erməni daşnakları tərəfindən şəhid edilən türk şəhidlərinin məzarı bu məkan olub. Bura Çəmbərəkənd qəbiristanlığı idi. Sonra oranı dağıdıb yerində park salsalar da, yenidən ora şəhidlərin uyuduğu məkana çevrildi. 1990-cı ildə Azərbaycanın suverenliyi uğrunda, sonra isə Dağlıq Qarabağ müharibəsində şəhid olanların cismi həmin məzarlığa qovuşdu və bu məkan Şəhidlər Xiyabanına çevrildi.

Şəhidlər Xiyabanının xarici turistlər üçün əhəmiyyət kəsb etməsi, onların bu məkanı ziyarət etməsi müsbət haldır. Çünki burada XX əsrdə xalqımızın başına gətirilən fəlakətlər zamanı xalqımızın azadlığı, xilası uğrunda şəhid olan insanlar uyuyur. Burada həm Qafqaz İslam Ordusunun şəhid əsgərləri, həm 20 Yanvar hadisələrində şəhid olanlar, həm də Dağlıq Qarabağ müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan insanlar dəfn ediliblər. Burada üç qəhrəmanlıq salnaməsi mövcuddur. Turistlər Şəhidlər Xiyabanını ziyarət edərkən burada uyuyan bütün şəhidləri ziyarət edirlər. Onlar bununla bizim qəhrəmanlıq tariximizi öyrənirlər.

Turistlərin ŞəhidlərXiyabanına gəlməsinin yaxşı tərəflərindən biri odur ki, onlar Azərbaycanın şəhidlik tarixini öz ölkələrində təbliğ edəcəklər. Bilirsiniz ki, turistlər Şəhidlər Xiyabanında dəfn edilən qəhrəmanların haqqədalət, Vətən uğrunda canlarından keçdiklərini öyrənir və bunu öz ölkələrində təbliğ edirlər. Çünki bu gün ermənilər Azərbaycan haqqında dünyaya yalan yayır, ölkəmizi "işğalçı" kimi təqdim etməyə cəhdlər edirlər. Amma turistlər gəlib gözləri ilə görürlər ki, işğal edilən Azərbaycan ərazisidir, şəhid olan azərbaycanlılardır, işğalçı isə ermənilərdir, burada uyuyan insanlar erməni gülləsindən həlak olublar. Diqqətçəkən məqamlardan biri odur ki, həm türk şəhidləri, həm 20 Yanvar şəhidləri, həm də Qarabağ şəhidləri rus-erməni hərbi qüvvələri tərəfindən qətlə yetiriliblər. Bu danılmaz bir həqiqətdir. 20 Yanvar faciəsinin törədilməsində də ermənilər yaxından iştirak ediblər. Şəhidlər Xiyabanı xalqımızın şanlı qəhrəmanlıq səhifələrini əks etdirməklə yanaşı, həm də ermənilərin törətdikləri qırğınların sübutudur" - deyə bildirən V.Abışov qəzetimizin təklifini dəstəkləyərək bildirdi ki, Şəhidlər Xiyabanının önündə xüsusi lövhə vurulmalıdır. "Bu təklifi dəstəkləyirəm. Siz çox yaxşı bir məsələni aktuallaşdırmısınız. Şəhidlər Xiyabanını ziyarət edən xarici turistlərin, nümayəndələrin heç də hamısının yanında tərcüməçi olmur.

**Onlar bəzən Şəhidlər Xiyabanında uyuyanlar haqqında müfəssəl məlumat ala bilmirlər. Həm "Türk şəhidliyi" abidəsi önündə, həm də Şəhidlər Xiyabanı qarşısında bir lövhə olmalı və bu lövhədə dünyanın aparıcı dillərində yığcam şəkildə bu məkanda dəfn edilən şəhidlər haqqında, onların kimlər tərəfindən şəhid edildiyi barədə məlumat əks olunmalıdır. Təəssüflər olsun ki, indiyə qədər belə lövhə yoxdur. O lövhə girişdə qoyulsa, lap yaxşı olar. Bu, Şəhidlər Xiyabanına gələn turistlərin burada dəfn edilən qəhrəman insanlar haqqında ətraflı məlumat almasına səbəb olar" - deyə V.Abışov vurğuladı.**

*İradə SARIYEVA*

**Turizmin dünya üzrə inkişaf etməsi Azərbaycandan da yan keçməyib. Azərbaycanın coğrafi cəhətdən əlverişli mövqedə yerləşməsi, böyük dövlət dəstəyinin olması, infrastrukturun təkmilləşdirilməsi turizm sahəsinin inkişafını şərtləndirən amillərdəndir. Ümumiyyətlə, turizmin inkişafı üçün ölkədə çoxlu sayda layihə həyata keçirilib.**

# Azərbaycan təhsilində daha bir paralel struktur yaratmaq cəhdi - Turizm Universiteti varsa, turizm məktəbinə nə ehtiyac...




## ***Elçin Rüstəmov:*** *"Turizm və Menecment Universiteti, demək olar ki, hər il çoxlu sayda peşəkar kadrı əmək bazarına təqdim edir"*

Bu günlərdə Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev BMT-nin Ümumdünya Turizm Təşkilatının Baş Assambleyasının Moskvada keçirilən "Hamı faydalanır: qlobal şəhərlərdə turizmin inkişafı strategiyaları" adlı sessiyasında çıxışı zamanı Azərbaycanda yeni turizm məktəbinin yaradılması barədə fikir səsləndirib. Agentlik sədri bildirib ki, Azərbaycanda yeni turizm məhsullarının yaradılmasına və inkişafına, eyni zamanda, mədəni irsin qorunub saxlanmasına dövlət tərəfindən xüsusi diqqət ayrılır. Azərbaycanda turizm sahəsində təhsilə də xüsusi diqqət yetirildiyini bildirən agentlik sədri yeni turizm məktəbinin yaradılması üçün işlərin aparıldığını diqqətə çatdırıb.

Məlumat üçün bildirək ki, turizmin inkişafı üçün ölkənin bir sıra universitetlərində turizm ixtisası tədris olunur. Ən əsası, ölkədə Azərbaycan Turizm və Menecment Universiteti fəaliyyət göstərir. Adıçəkilən universitetdə turizm ixtisası yetərincə tədris olunduğu halda, turizm üzrə məktəbin yaradılmasına ehtiyac yoxdur. Turizm və Menecment Universiteti olduğu halda, turizm sahəsi üzrə yeni məktəbin yaradılması düzgün addımdırmı?

Turizm sahəsi üzrə mütəxəssis Elçin Rüstəmov bizimlə söhbətində bildirdi ki, Turizm və Menecment Universitetindən əlavə, ali təhsil ocaqlarının əksəriyyətində turizm fakültəsi var. Ötən illərlə müqayisədə Azərbaycanda turizm fakültələrini bitirən gənclərin ixtisas hazırlığı yetərincədir: "Etiraf edək ki, illər öncə ali təhsil ocaqlarının bəzisində turizm ixtisasını coğrafiya müəllimləri tədris edirdi. Ancaq artıq bu sahədə problem yaşanmır. Turizm və Menecment Universiteti, demək olar ki, hər il çoxlu sayda peşəkar kadrı əmək bazarına təqdim edir. Adıçəkilən universitetdə öz ixtisasının peşəkarı olan müəllimlərimiz var. Həmin müəllimlər nəzəriyyəni və öz təcrübələrini tələbələrə öyrədirlər".

Həmsöhbətimizin sözlərinə görə, ölkədə yeni bir turizm məktəbinin yaradılması ilə bağlı fikirlər səslənir: "Zənnimcə, ölkədə turizm sektoru yetərincə tədris olunduğu halda, bu sahə ilə bağlı məktəbin yaradılmasına ehtiyac yoxdur.

Turizm Universiteti ilə yanaşı, turizm peşə məktəbi də mövcuddur. Bu peşə məktəbində də turizm fənni lazımi səviyyədə tədris olunduğu üçün, yeni məktəbin yaradılmasına lüzum yoxdur".

***Günel CƏLİLOVA***

---

**Yeni dərs ilinin başlanmasını şagirdlər qədər valideynlər də böyük həyəcanla gözləyirlər. Artıq 2019-2020-ci tədris ili başlayıb. Məktəbin başlamasına bir neçə gün qalmışdan valideynləri ən çox qayğılandıran məsələlərdən biri övladına hansı nəşriyyat evinin çap edib satışa buraxdığı məktəbli gündəliyini almaqla bağlıdır.**

# Məktəblərimizdə vahid gündəlik problemi...



## ***İlqar Orucov:*** *"Ölkə məktəblərində vahid məktəbli kitabçasının tətbiq edilməməsi insanları çaş-baş salır"*

Valideynlər uşaqlarına hansı gündəliyi alması ilə bağlı çaş-baş qalıblar. Qeyd etdiyimi kimi, bütün satış mərkəzlərində bir neçə formada məktəbli kitabçaları satılır. Satıcılar valideynləri inandırmağa çalışırlar ki, təqdim edilən bütün məktəbli kitabçaları məktəblər tərəfindən qəbul edilir. Əslində isə belə deyil. Satışda olan bütün gündəliklərin heç də hamısı məktəblər tərəfindən qəbul edilmir. Məktəbli kitabçası şagirdin dərs vaxtı öyrəndiklərini qiymətləndirmək üçün bir vasitədir və burada hər şey öz qaydasında olmalıdır ki, kurikulumun bütün tələblərinə cavab verə bilsin. Sirr deyil ki, satışda olan məktəbli kitabçalarının arasında standartlara uyğun olmayanları da var. Məktəbli kitabçalarının çoxçeşidli olması cəmiyyətdə əməllibaşlı çaşqınlıq yaradıb. Valideyn satışda olan istənilən bir məktəbli kitabçasını alıb məktəbə təqdim edəndə, bir çox hallarda, məktəblərdən "biz bu gündəlikləri qəbul etmirik, siz filan nəşriyyatın çap etdiyi gündəliyi almalısınız" deyirlər. Bu da valideynləri narahat etməyə bilməz.

Onu da qeyd edək ki, məktəbli kitabçalarının qiymətləri də fərqlidir, hər nəşriyyat özünün çap etdiyi gündəliyə xüsusi qiymət qoyur. Bir neçə ildir gündəmdə olan bu məsələnin həlli yalnız ölkə üzrə məktəblərdə vahid məktəbli kitabçasının tətbiq edilməsilə mümkün ola bilər. Mövcud problem vahid məktəbli kitabçasının tətbiqinə zərurət yaradıb.

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında yaradılan İctimai Şuranın üzvü, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov bununla bağlı "Bakı-Xəbər"ə bildirdi ki, məktəbli kitabçaları ilə bağlı məsələ ictimaiyyəti hər zaman ciddi narahat edir. "Valideynlərdən hansı məktəbli kitabçanı almalı olduqları ilə bağlı tez-tez suallar, narazılıqlar eşidilir. Bilirsiniz ki, vahid məktəbli kitabçası ilə bağlı Təhsil Nazirliyi tərəfindən hər hansı bir tövsiyə və qadağa yoxdur. Bunun nəticəsidir ki, müxtəlif mətbəələrdə fərqli formatlarda məktəbli gündəlikləri çap ounur və satışa buraxılır, onların qiymətləri də fərqli olur. Tutalım, məktəbli kitabçalarının qiyməti 1 manat 50 qəpikdən, 2 manatdan başlayaraq müxtəlif qiymətlərə olur. Bu da sözsüz ki, müəyyən problemlərə səbəb olur. Ölkə məktəblərində vahid məktəbli kitabçasının tətbiq edilməməsi insanları çaş-baş salır. Bir də görüsünüz ki, bir məktəb, yaxud bir sinif rəhbəri "sizin aldığınız gündəlik yararlı deyil, filan gündəliyi alın" deyir. Fikrimcə, məktəbli kitabçaları ilə bağlı nazirlik tərəfindən hər hansı bir tövsiyə, qadağa yoxdursa, sinif rəhbəri gündəliklə bağlı heç bir tələb qoya bilməz, bu halda təqdim edilən bütün gündəliklər qəbul edilməlidir. Qaldı ki, vahid məktəbli kitabçasının qəbul edilməsinə, bu məsələyə baxılmalıdır. Ölkə məktəblərində vahid məktəbli kitabçasının tətbiq edilməməsi insanları çaş-baş salır. Hesab edirəm ki, gələcəkdə bütün məktəblərdə vahid məktəbli kitabçasından istifadə edilərsə, bu, mövcud problemin aradan qalxmasına səbəb olar".

> *"Hesab edirəm ki, gələcəkdə bütün məktəblərdə vahid məktəbli kitabçasından istifadə edilərsə, bu, mövcud problemin aradan qalxmasına səbəb olar"*

İ.Orucov qeyd etdi ki, İctimai Şurada cəmiyyəti narahat edən bu kimi məsələlərin müzakirəsinə yer veriləcək. O, həmçinin, vurğuladı ki, konkret olaraq məktəbli kitabçaları ilə bağlı ictimaiyyət tərəfindən şikayətlər, təkliflər olarsa, İctimai Şura bunu müzakirə etməyə hazırdır. "Bununla bağlı İctimai Şuranın hər hansı bir qərarı olarsa, biz bunu nazirliyə tövsiyə edəcəyik. Bu gün gündəliklər keyfiyyətinə görə də fərqlənir. Elə gündəliklər var ki, çox keyfiyyətli çap olunub, eləsi də var ki, çox zəif keyfiyyətlidir, onlar dərs ilinin sonuna qədər davam gətirmir" - deyə İ.Orucov qeyd etdi.

***İradə SARIYEVA***

№ 164 (4062) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

17 SENTYABR 2019-cu il

www.baki-xeber.com

# NASA uzaq qalaktikadan gәlәn x-ray şüalarının mәnşәyini araşdırır



**ABŞ-ın Aeronavtika vә Kosmik Tәdqiqatlar Agentliyinin (NASA) alimlәri uzaq qalaktikada mavi vә yaşıl x-ray şüalarının mәnşәyini araşdırıblar.**

Tәdqiqatçılar sirli işıqların bu qәdәr parlaq olmasının sәbәbini öyrәnmәk istәyiblәr. Onlar müәyyәn ediblәr ki, ULX-4 tipli bu şüalar Yer kürәsindәn 22 milyon il uzaqlıqda yerlәşәn "Atәşfәşanlıq Qalaktikası"ndan gәlir. "AZƏRTAC" bildirir ki, "Atәşfәşanlıq Qalaktikası"ndan (NGC 6946) yayılan mavi ә yaşıl rәngli şüalar rәqәmsal sәma qurğusu ilә NASA-nın "NuSTAR" rәsәdxanasında qeydә alınıb. Lakin müәyyәn edilib ki, bu ULX şüaları әvvәlkilәrә nisbәtәn daha qısaömürlüdür. Belә ki, 10 gün müddәtindә NASA-nın "NuSTAR" vә "Çandra" teleskopları tez-tez әmәlә gәlәn vә itәn şüaları çәtinliklә qeydә ala biliblәr. Tәdqiqatçılar bildiriblәr ki, hәmin işıqların mәnşәyini müәyyәn etmәk üçün 10 gün çox az müddәtdir vә bu şüalar qara dәlik, yaxud neytron ulduzları da ola bilәrdi. Avqustda aparılan tәdqiqatlar zamanı alimlәr bu şüaların qara dәlik tәrәfindәn udulan parlaq ulduz olduğunu da ehtimal ediblәr. Qara dәliyin qravitasiyası ulduzu parçalara ayırır vә bu prosesdә fırlanma gücü nәticәsindә milyonlarla dәrәcәlik temperatur, habelә x-ray radiasiyası әmәlә gәlir. Lakin qara dәlik adәtәn, 10 gün müddәtinә ulduzları parçalayıb mәhv edә bilir. ULX-4 şüalarının ani parlaması vә itmәsi isә, NASA-nın qәnaәtinә görә, onun bir neçә ulduzu anidәn udmasının әlamәtidir. Alimlәr qeyd edirlәr ki, ULX-4 neytron ulduzların da işığı ola bilәr. Nәhәng olmayan bu ulduzlar qara dәlik tәrәfindәn ani udula vә parçalana bilmәdiyindәn qeyri-adi dәrәcәdә sıx kürә şәklindә Günәşin 12 mil radiusunda parlaq işıq saçır. NASA-nın alimlәri bildirirlәr ki, neytron ulduzlar maqnit sahәsindә o qәdәr sürәtlә fırlanır ki, digәr ulduzlardan gәlәn maneәlәr fonunda әtrafa parlaq x-ray işıqları yayılır. Lakin hәmin şüaların mәnşәyi qalaktikalararası sirr olaraq qalır.

## "Umico" ilә alış-veriş edәrәk "Azercell" nömrәnizin balansını artırın!

**Zәngin rәqәmsal mәhsullar bazasına malik olan ölkәnin lider mobil operatoru "Azercell Telekom" MMC texnoloji yeniliklәrin tәtbiqi vasitәsilә insan hәyatını rahatlaşdırmaq istiqamәtindә fәaliyyәtini genişlәndirmәyә davam edir.**




"Umico" bonus proqramının eksklüziv telekom tәrәfdaşı olan "Azercell" adıçәkilәn proqram istifadәçilәrinә keşbәk qazanmaq imkanı yaradır. Sentyabr ayının 3-dәn etibarәn "Umico" istifadәçisi olan "Azercell" fakturasız xәtt müştәrilәri balanslarını rәqәmsal kanallar vasitәsilә artırmaqla, 0.7% mәblәğindә keşbәk әldә edir. Bonuslar "MilliÖN" terminalları vә internet saytı, "Modenis", "Expressbank", "Smartpay" terminalları, "PaySis", "Goldenpay", "Azerikard" internet saytları, "ABB" ATM-lәri, "Azәrpoçt" şöbә vә filialları vasitәsilә edilәn ödәnişlәrә tәqdim olunur.

Qeyd edәk ki, istifadәçilәrә "Umico"nun 500-dәn çox tәrәfdaş şәbәkәlәrindә alış-veriş zamanı keşbәk qazanmaq vә topladıqları keşbәk balansını eyni şәkildә partnyor şәbәkәlәrindә sәrf etmәk fürsәti verilir. "Azercell" abunәçilәri toplanan bonusları "Umico" mobil tәtbiqi çәrçivәsindә hәm fakturalı, hәm dә fakturasız xәtt nömrәlәrinin balansına yüklәyә bilәrlәr.

Mәlumat üçün vurğulayaq ki, layihә çәrçivәsindә şirkәtin ilk tәklifi cari ilin may ayından etibarәn "Azercell" mağazalarından alınan smartfon vә aksesuarlar üçün 3.5% vә 7.5% dәyәrindә keşbәk verilmәsi, hәmçinin, toplanan bonusun eyni mağazalarda alış-veriş zamanı xәrclәnә bilmәsi olub.

"AppStore" vә ya "PlayStore"dan "Umico" mobil tәtbiqini yüklәyin vә bu fürsәtdәn yararlanmağa tәlәsin!

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.

## "Nar" abunәçilәrinin nәzәrinә!

**27.09.2019-cu il tarixindәn etibarәn "CavanNar 6" tarifindә dәyişikliklәr olacaq.** Daha әtraflı mәlumatı nar.az sәhifәsindәn әldә etmәk olar.

## Elan

Şәki rayonu, M.Əsәdov adına qәsәbә sakini Mәhәrrәmov İsmayıl Mәhәrrәm oğlunun vә ailә üzvlәrinin adına verilmiş JN: 0016 saylı torpağa mülkiyyәt hüququna dair dövlәt aktı itdiyi üçün etibarsız sayılır.

Novruzov Rәhim İsrafil oğluna Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Günün ilk yarısında vәziyyәt sabitlik vә sakitlikdәn çox uzaqdır. Əlavә işlәr, qәfil tapşırıqlar olacaq. Sәlahiyyәt dairәnizә bilavasitә daxil olmayan işlәri hәvalә etsәlәr, yaxşıca düşünün.



**Buğa** - Günün ilk yarısı uğurlu zamandır. Tәk qalmağa çalışın. Müstәqil fәaliyyәtdә xeyir var. Hadisәlәrә diqqәt yetirin, kollektiv fәaliyyәtdәki mәnfi mәqamları aradan qaldırın. Günün ikinci yarısında kәnar tәsirlәr artacaq.



**Əkizlәr** - Maliyyә mәsәlәlәrinin hәlli üçün әlverişli zamandır. Yeni işә başlamayın, yarımçıq işlәri başa vurun. Ünsiyyәt dairәmizi genişlәndirin. Cari vәziyyәtdә maraqlarınızın tam tәminatına can atın.



**Xәrçәng** - Yaxşı, rahat gündür. Başladığınız işlәrdә uğur әldә edәcәksiniz. Emosiyalara uymayın, maraqlandığınız obyekt barәdә mümkün qәdәr çox informasiya әldә edin. Ailәdә xoş hadisәlәr yaşanacaq.



**Şir** - Uğurlu zamandır. Diqqәt mәrkәzindә olacaqsınız. Danışıqlara qatılın, müzakirәlәrdәn yan qaçmayın. Əmәkdaşlığın konturlarını dәqiqlәşdirin, tәrәfdaşlıq şәrtlәrini konkretlәşdirin.



**Qız** - Bu gün qeyri-adi hadisә yaşanacaq. Fәaliyyәtinizi intensivlәşdirәcәk informasiya alına bilәr. Yeni tәmaslar qurun, münasibәtlәri nizamlayın. Əlaqәlәri kәsdiyiniz insanla barışın.



**Tәrәzi** - Adi günlәrdәn fәrqli olaraq bu gün işlәr vә qayğılar çoxdur. Eqoist olmayın, tәkbbürlü insan tәsiri bağışlamayın. Belәdә yaxın әtrafınızdakı insanlarla münasibәtlәriniz pozula bilәr.



**Əqrәb** - Bir yerdә durmasanız, tәnbәllik etmәsәniz, yaxşı nәticәlәr әldә edәcәksiniz. Dәrs ala bilәcәyiniz hadisәlәr baş verәcәk. Hansısa mәsәlәlәrdә güzәştә getmәk, mövqelәrdәn geri çәkilmәk gәrәkdir.



**Oxatan** - Tәnhalığa qapılmayın, tәk işlәmәyә çalışmayın. Dostlarla ünsiyyәt üçün yetәrincә vaxt tapa bilmirsinizsә, internet yaxşı alternativ ola bilәr. Xәbәr axınında faydalı mәlumatlar, müşkülәri çözmәyin yollarını arayın.



**Oğlaq** - Baş verәnlәri diqqәtlә müşahidә edin. Dәyәr verdiyiniz insanların xәtrinә dәymәyin. Sәrt tәnqidlәr vә sonsuz iradların zamanı deyil. Situasiyanı aydınlaşdırmaq üçün sual vermәkdәn çәkinmәyin.



**Dolça** - İşlәmәklә yanaşı, әtrafınızdakı insanların dediklәrinә qulaq asın. Fәaliyyәtinizin diaqnostikası zamanıdır. Yeni mәqsәdlәri müәyyәnlәşdirin. Yeni ideya vә planlarınızı bölüşmәyә tәlәsmәyin.



**Balıqlar** - Fәaliyyәt arealınızda dәyişikliklәrә başlamaq üçün әlverişli zamandır. Ənәnәlәri unutmayın, sınanmış metodları qulaqardına vurmayın. Dostlarla tәrәfdaşları ümumi maraqlar әtrafında birlәşdirmәk olar.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Dünyanın әn balaca atı...



**Polşada dünyanın әn balaca atı tapılıb. "Qafqazinfo" xәbәr verir ki, onun hündürlüyü cәmi 56,7 santimetr tәşkil edir.**

At 160 santimetrәdәk boy atan appaluza cinsinә aiddir. 2014-cü ildә fermerlәr Patik vә Katarina Zelinskilәr tәrәfindәn alınan ata "Bombel" adı verilib. Fermerlәrin sözlәrinә görә, әvvәlcә heyvan adi ölçülәrdә olsa da, sonradan böyümәyib. "Bombel"in sahiblәri hesab edir ki, o, böyük ürәyә sahib olan balaca atdır. Ayda bir dәfә uşaq xәstәxanasına baş çәkәn heyvan orada pasiyentlәrlә vaxt keçirir.

***Hazırladı: Ramil QULİYEV***

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*
*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**
Qәzet hәftәdә 5 dәfә çıxır.
(Bazar vә bazar ertәsindәn başqa).
«BZ»-dә çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.